

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**3 sentyabr 1991-ci il - Müstəqilliyimizin başlanğıc tarixi**



5

№ 159 (7084)

3 sentyabr 2024-cü il.
Qiymәti 60 qәpik

# BÖYÜK QAYIDIŞIN uğurlu konsepsiyası - Kəlbəcər səhifəsi



2

# Uçuruma doğru aparan AĞ YALANLAR



6

**"Azərbaycanda azad və ədalətli seçkilər baş tutub"**




8

**ATƏT ənənəvi riyakarlığından əl çəkmədi**




11

**Beynəlxalq müşahidəçilər: "Mütəşəkkil, şəffaf, pozuntusuz seçkilər keçirildi"**



15

**Daha bir idmançımız paralimpiya çempionu olub**




16

**İran mediası: "Zəngəzur dəhlizi Rusiya və Ermənistan arasında yeni gərginlik mənbəyidir"**




14






# BÖYÜK QAYIDIŞIN uğurlu konsepsiyası - Kəlbəcər səhifəsi

***Genişmiqyaslı işlər, sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində Azərbaycan siyasi və makroiqtisadi baxımdan sabit, təhlükəsiz ölkə, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısına çevrilib. Bütün bunlarla yanaşı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü, mühüm tranzit qovşağı kimi beynəlxalq aləmdə tanınır.***



Əlbəttə ki, dünya dövlətləri ilə əməkdaşlıq və dostluq münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir. Əlbəttə ki, güclü dövlət və qazandığımız uğurlar bizə Zəfərimizi yaşatdı. 30 ilə yaxın işğalda olan torpaqlarımız Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olundu. Azərbaycanın həm hərb meydanında, həm də diplomatiya sahəsində Ermənistanı diz çökdürməsi dövlətimizin gücünün göstəricisidir. Bütün dünya Ordumuzun gücünü, işğalçı Ermənistanın məğlubiyyətini gördü. Azərbaycan xalqı başda olmaqla, bütün türk dünyası bu tarixi Zəfəri yaşadı. Qarabağ Zəfəri sayəsində regionda yaranmış yeni geosiyasi vəziyyət təkcə region dövlətlərinə deyil, bütün Avrasiya məkanında sülh və inkişafa yol açır.

Bugünkü günümüzün reallığı, əsas hədəf Qarabağın bərpası və Böyük Qayıdış strategiyasını reallaşdırılmasıdır. Azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılması əsas məsələlərdəndir. Azərbaycan Prezidenti İlham Əliyevin müdrik, uzaqgörən siyasətinin nəticəsidir ki, işğaldan azad olunan ərazilərə etdiyi səfərlər zamanı həmin yerlərdən verdiyi mesajlar, açılışı olan obyektlər, yaradılan infrastruktur layihələri deməyə əsas verir ki, böyük quruculuq işləri nəticəsində bu ərazilərdə artıq yeni həyat başlanıb. Böyük Qələbənin nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir. Sözügedən strategiya yeni infrastrukturun yaradılması ilə yanaşı, işğaldan azad olunmuş ərazilərin ümumən regionun yeni inkişaf modelinə çevirməkdən ibarətdir. Əlbəttə ki, bu gün işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri planlı şəkildə həyata keçirilir. Yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir. Azad olunmuş Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilmişdir.

## REGİONDA YARADILAN ƏN BÖYÜK YAŞIL ENERJİ MƏNBƏYİ

Bu gün işğaldan azad olunan digər ərazilərimiz kimi, Kəlbəcər də yeni quruculuq dövrünə qədəm qoyub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər rayonuna səfəri çərçivəsində Tərtər çayı üzərində yerləşən ”Azərenerji” ASC-nin 22,5 MVt gücündə olan ”Yuxarı Vəng” Su Elektrik Stansiyasının açılışında iştirak ediblər.

Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərin yaşıl enerji zonasına çevrilməsi istiqamətində strategiyasına uyğun olaraq Kəlbəcərdə yeni tikilən ”Yuxarı Vəng” Su Elektrik Stansiyası Vətən müharibəsində Qələbəmizdən sonra regionda yaradılan ən böyük yaşıl enerji mənbəyidir. Belə ki, təkcə bu SES-də istehsal edilən yaşıl enerji növbəti 5 il ərzində Kəlbəcər rayonunun elektrik enerjisi tələbatını tam ödəyə bilər. Ümumi gücü 40 meqavat olan ”Kəlbəcər” SES silsiləsi azad edilən ərazilərdə 42 meqavatlıq ”Zəngilan” SES silsiləsindən sonra tikilən ikinci böyük silsilədir.

”Yuxarı Vəng” SES-ə su iki mənbədən – ”Nadirxanlı” SES-in çıxışı və Tutqu çayı üzərində inşa edilən baş suqəbuledici qurğudan daxil olur. Müasir avadanlıqla təchiz edilən stansiyada 110 kilovoltluq Açıq Paylayıcı Qurğu tikilib və 24 damarlı optik kabel xətti çəkilib. Bununla da stansiya mərkəzləşmiş SCADA sisteminə inteqrasiya olunmaqla yanaşı, ən müasir rəqəmsal idarəetmə sistemləri ilə təchiz olunub və burada lazımi kibertəhlükəsizlik tədbirləri görülüb.

Layihə çərçivəsində həyata keçirilən tikinti-quraşdırma işlərində ətraf mühit amilləri nəzərə alınıb. Belə ki, çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması və onların çay ekosistemində saxlanılması üçün xüsusi hidrotexniki qurğular layihələndirilərək tikilib.

”Yuxarı Vəng” SES-də il ərzində 66 milyon kilovat-saatadək yaşıl enerjinin istehsal olunması nəzərdə tutulur. Bu da 15 milyon kubmetr təbii qaza qənaət edilməsi, 27 min tondan çox karbon emissiyasının qarşısının alınması deməkdir. Bu layihə BMT-nin iqlim dəyişikliyi ilə mübarizə və yaşıl enerjiyə keçidin sürətləndirilməsi baxımından əhəmiyyətlidir. ”Yuxarı Vəng” SES ”Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində həyata keçirilən əhəmiyyətli təşəbbüslərdən biri olmaqla, Azərbaycanın enerji sektoru ilə bağlı beynəlxalq səviyyədə qəbul edilən ekoloji standartlara uyğun icra edilib və ölkəmizin yaşıl enerji inkişafına sadiqliyini göstərən bir nümunədir.

Stansiya əhalinin məşğulluğu baxımından da mühüm rol oynayır və burada məhz Kəlbəcər rayonunun sakinlərinin işlə təmin olunması nəzərdə tutulur. Qeyd edək ki, ölkəmizdə ilk dəfə Qarabağ və Şərqi Zəngəzur ilin bütün fəsillərində xalis sıfır karbon emissiyalı regiona çevrilib və elektrik enerjisi tələbatı tam həcmdə yaşıl enerji hesabına təmin edilir. Artıq qalan enerji ölkə enerjisistemінə ötürülür, bu da regional enerji müstəqilliyini artırır və ətraf mühitin qorunmasına töhfə verir.

## KƏLBƏCƏR ŞƏHƏRİNDƏ İKİNCİ YAŞAYIŞ KOMPLEKSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Kəlbəcər şəhərində ikinci yaşayış kompleksinin təməlini qoyub. Kompleks 1,76 hektar ərazidə layihələndirilib. Kəlbəcər şəhərində salınacaq ikinci yaşayış kompleksi şəhərin Baş planına əsasən çoxfunksiyalı zonada yerləşir. Kompleksdə 3 və 5 mərtəbəli 8 yaşayış binasının inşası nəzərdə tutulur. Mənzillərin 56-sı ikiotaqlı, 56-sı üçotaqlı, 48-i isə dördotaqlı olacaq. Burada ümumilikdə 160 ailənin yaşaması planlaşdırılır. Bu yaşayış kompleksində əhalinin məşğulluğunun və istirahətinin təmin edilməsi üçün hər cür şərait yaradılacaq, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Burada evlərin və küçələrin işıqlandırılmasında ”yaşıl enerji”dən istifadə olunacaq.

Ardı Səh. 3

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib



***Sentyabrın 2-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Rəcəb Tayyib Ərdoğan Azərbaycanda keçirilən parlament seçkilərində Yeni Azərbaycan Partiyasının inamlı qələbəsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb.***

Türkiyə Prezidenti bu seçkilərin Azərbaycanın suverenliyinin tam bərpa edilməsindən sonra ölkəmizin bütün ərazisində keçirilən ilk parlament seçkiləri olmasının önəmini qeyd edib. Rəcəb Tayyib Ərdoğan seçkilərin azad, sərbəst, demokratik şəraitdə keçdiyini və Azərbaycan xalqının iradəsini əks etdirdiyini vurğulayıb. Prezident İlham Əliyev təbrikə görə təşəkkürünü bildirib.

Telefon danışığı zamanı Azərbaycanla Türkiyə arasında parlamentlərarası əlaqələrin əhəmiyyəti və parlament nümayəndə heyətlərinin mütəmadi qarşılıqlı səfərləri qeyd olunub. Eyni zamanda, ölkəmizdə keçirilən bu seçkilərdə Türkiyə Böyük Millət Məclisinin parlamentlərarası dostluq qrupunun müşahidəçi qismində geniş tərkibdə iştirak etdiyi bildirilib. Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin perspektivlərinə dair fikir mübadiləsi aparılıb.





# BÖYÜK QAYIDIŞIN uğurlu konsepsiyası - Kəlbəcər səhifəsi





Əvvəli-Səh-2

### GÖYGÖL VƏ KƏLBƏCƏR RAYONLARINI BİRLƏŞDİRƏN AVTOMOBİL YOLU

Cənab Prezident və Mehriban Əliyeva Kəlbəcər rayonunun Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu layihəsi çərçivəsində inşa olunan 4-cü tuneldə və bu yolun 15,2 kilometrlik hissəsində görülən işlərlə tanış oldular. Bununla yanaşı, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonunun Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu layihəsi çərçivəsində inşa olunan 4-cü tuneldə və bu yolun 15,2 kilometrlik hissəsində görülən işlərlə tanış oldular. İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisi sürətlə davam etdirilir. Mövcud yolun uzunluğu 100, yeni yolun uzunluğu isə 82 kilometrdir. Yolda artıq bir sıra işlər tamamlanıb. Yolun 34,9-35,4 kilometrliyindəki tunelin uzunluğu 500, hərəkət hissəsinin eni isə 8 metrdir. Layihə üzrə yolboyu ümumi uzunluğu 2968 metr olan 6 qovşaq yenidən qurulub. Ümumi uzunluğu 5600 metr olan 36 bağlantı yolunun tikintisi də icra edilməkdədir.

Toğanalı-Kəlbəcər yolunun 13-cü kilometrliyindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1700 metrdən 3260 metrə qədər artır. Bu hissədə dünyanın əz uzun avtomobil tunellərindən biri olacaq Murovdağ tunelinin inşası davam etdirilir. Tunel bir istiqamət üzrə 2 hərəkət zolaqlı və 10 metr enində olacaq. Bundan əlavə 561,2 metr, 626,9 metr, 500 metr və 947,9 metr uzunluğunda 4 tunelin tikintisi də həyata keçirilir. Uzunluğu 23,4 kilometr olacaq Murovdağ tunelinin daxilində sağ və sol hissələri birləşdirən bağlantı yolların inşası istiqamətində işlər davam etdirilir. Ümumilikdə Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisinin 67,5 faizi tamamlanıb.

### DÜNYA ƏHƏMİYYƏTLİ MEMARLIQ ABİDƏSİ - XUDAVƏNG MƏBƏDİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər rayonunda Xudavəng monastır kompleksində oldular. Dünya əhəmiyyətli memarlıq abidəsi olan Xudavəng məbədi 1992-2020-ci illərdə ermənilərin təcavüzünə məruz qalıb. İşğal dövründə erməni apostol kilsəsinin dəstəyi və Ermənistan dövlətinin vəsaiti hesabına monastırda "bərpa" adı altında qanunsuz işlər görülüb. Arzu xatun, Böyük Həsən kilsələri və kompleksə daxil olan digər tikililər üzərində saxtalaşdırma əlamətləri olan əlavələr edib, abidələrin bir çox hissələrini vandalizmə məruz qoyublar. Torpaqlarımız işğaldan azad ediləndən sonra monastırda qalan erməni keşiş və rahiblər abidələrdəki qədim freskaları xarici mütəxəssislərin iştirakı ilə xüsusi üsulla kəsib götürüb, qanunsuz olaraq Azərbaycan Respublikasının ərazisindən çıxarıblar.

2020-ci ilin dekabr ayında İrəvanda keçirilən sərgidə Xudavəng monastır kompleksindən oğurlanmış zəng, daş kitabələr, freskalar, xalçalar və Azərbaycan Respublikasına məxsus digər mədəni irs nümunələri qanunsuz olaraq nümayiş etdirilib. Daha sonra qanunsuz olaraq "VII-XIII əsrlərdə erməni xristian kilsələrində freskalar" adı altında İtaliyanın Padua şəhərində açılmış sərgidə Xudavəng monastırının freskaları "erməni ənənəvi incəsənət nümunələri" kimi təqdim olunub. Həmin sərgi İtaliyanın bir neçə şəhərində də təşkil edilib.

### AZƏRBAYCANIN QURUCULUQ MEYDANINDA İMZA ATDIĞI LAHİYƏLƏR

Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq sıfırdan yeni şəhər və kəndlər salır. 2021-ci ildə bu məqsədlə dövlət büdcəsindən 1,3 milyard, 2022-ci ildə isə 2.2 milyard ABŞ dolları məbləğində vəsait ayrılmışdır. Təbii ki, Böyük Qələbənin nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir. Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Dayanıqlı sülhə, tərəqqiyə əsaslanan Azərbaycan Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması istiqamətində kifayət qədər layihələri həyata keçirib və bu davamlıdır. Eləcə də nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülüb. Qısa bir zamanda Böyük Qayıdışın ilk karvanı olan Ağalıya edilən köç, eləcə də, Şuşada, Füzulidə və digər ərazilərdə görülən işlər bunu deməyə əsas verir. Birinci pilot layihə olan "Ağıllı kənd" layihəsi Zəngilanda icra edildi, Beynəlxalq hava limanlarının - Füzulidə Beynəlxalq hava limanının, Zəngilan Beynəlxalq hava limanının istifadəyə verilməsi Azərbaycanın nəhəng quruculuq işlərinin həyata keçirməsindən xəbər verir. Bu, Azərbaycanın gücünün göstəricisidir. Beynəlxalq hava limanlarının inşa olunması, 100 kilometrlərlə dəmir yolunun çəkilməsi regionun logistik simasını tamamilə dəyişdirəcəkdir.

Azərbaycan bu gün quruculuq meydanında imza atdığı lahiyələri ilə sözünü deyir. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası, dayanıqlı inkişafının və əhalinin yüksək həyat səviyyəsinin təmin olunması üçün zəruri infrastrukturun yaradılması istiqamətində ardıcıl tədbirlər görülür. Məlumdur ki, Azərbaycan Zəfər qazandıqdan sonra işğaldan azad edilmiş ərazilərdə müxtəlif yaşayış məntəqələri arasında, eləcə də bu məntəqələri ölkənin digər şəhər və rayonları ilə birləşdirən nəqliyyat infrastrukturu formalaşdırılmağa başlanıldı. Əlbəttə ki, strateji əhəmiyyət kəsb edən məsələlərin çevik həllinə xidmət edən peşəkar idarəetmə sisteminin mövcudluğu işlərin sürətlə və səmərəli həyata keçirilməsində mühüm əhəmiyyət kəsb edir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası nəticəsində nəzərdə tutulan hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək ərazilərdə görüləcək işlər əhalinin təhlükəsizliyin təmin olunmasına, eləcə də etibarlı, keyfiyyətli və dayanıqlı infrastrukturla təminatın həyata keçirilməsinə su, qaz, elektrik, istilik və s. infrastrukturun yenidən qurulmasına və s. yönəldilib. Bu Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb. Bu sənəd əhalinin doğma torpaqlarına geri qayıdışını məsələlərini, məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək, məşğulluq imkanlarını artırmaqla yanaşı, dayanıqlı sosial-iqtisadi inkişafı təmin etməklə hədəflənən məqsədlərin sürətli və keyfiyyətli icrasına öz töhfəsini verəcəkdir.

***Zümrüd BAYRAMOVA***



*Sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 1 saylı seçki məntəqəsində səs veriblər.*



# Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva səs veriblər





AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı. Sonra birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva səs verdilər. Qeyd edək ki, Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 1 saylı seçki məntəqəsində 579 seçici qeydiyyata alınıb. Bu seçki dairəsi üzrə 8 namizəd mübarizə aparır.



# "Serbiya Azərbaycanın dostu və strateji tərəfdaşıdır"





## *Prezident İlham Əliyev Serbiyanın xarici işlər nazirini qəbul edib*

Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Serbiya Respublikasının xarici işlər naziri Marko Curiçi qəbul edib. Serbiyanın xarici işlər naziri Prezident Aleksandar Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı.

Azərbaycanda keçirilən növbədənkənar parlament seçkiləri ilə bağlı uğurlar arzulayan Marko Curiç Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi nailiyyətləri məmnunluqla qeyd etdi. Serbiyanın xarici işlər naziri COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, ölkəmizin qlobal müstəvidə yeni tərəfdaşlıq şəbəkələri və münasibətləri qurduğunu vurğuladı. Prezident İlham Əliyev Aleksandar Vuçiçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiya Prezidentinə çatdırmağı xahiş etdi.

Prezident Vuçiçlə həm Azərbaycanda, həm də Serbiyada görüşlərini məmnunluqla xatırlayan dövlətimizin başçısı vurğuladı ki, onun Serbiya Prezidenti ilə olan dostluq və tərəfdaşlıq əlaqələri ikitərəfli münasibətlərimizin inkişafına ciddi təkan verir.

Serbiyanın Azərbaycanın dostu və strateji tərəfdaşı olduğunu, ölkələrimiz və xalqlarımız arasında səmimi münasibətlərin qurulduğunu deyən Prezident İlham Əliyev qeyd etdi ki, bunlar əməkdaşlığın bütün sahələrdə inkişafında özünü göstərir. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanla Serbiya arasında dostluq əlaqələri təkcə ikitərəfli münasibətlər baxımından deyil, eyni zamanda, regional müstəvidə Balkan və Qafqaz regionları arasında əməkdaşlığın inkişafına təkan verilməsi baxımından çox vacib xarakter daşıyır.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan öz suverenliyinin və ərazi bütövlüyünün təmin olunması prosesində ikili standartlar, ədalətsizlik, beynəlxalq hüququn norma və prinsiplərinə zidd yanaşmalarla üzləşib. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan öz iradəsi ilə ərazi bütövlüyünü və suverenliyini tam şəkildə təmin edib.

Görüşdə ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu. Azərbaycanın enerji resurslarının digər Avropa ölkələrinə, o cümlədən Balkan ölkələrinə ixracında Serbiyanın artıq tranzit rolunu oynadığı qeyd edildi. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyi, xüsusilə ərazi bütövlüyü və suverenlik məsələlərində prinsipial yanaşmaları bir daha vurğulandı. Söhbət zamanı əməkdaşlığın müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı.

# 3 sentyabr 1991-ci il - Müstəqilliyimizin başlanğıc tarixi





***Azərbaycanda dövlət quruculuğu, iqtisadi dirçəliş, sosial-siyasi həyatda tərəqqi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyev Azərbaycanı bir dövlət, xalqımızı isə bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxarıb. Azərbaycan dövlətini dünya dövlətləri arasında irəli çıxaran, ölkəmizi parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi.***



Müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz xəzinə, bir məktəbdir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin hər birinin uğurlu gələcəyimizə hesablandığını görərik. Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Dahi Şəxsiyyət Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Bütün həyatı boyu həmişə xalqının yanında olan Heydər Əliyev 1990-cı ildə törədilmiş 20 yanvar faciəsi zamanı Azərbaycan xalqına qarşı həyata keçirilən siyasətə etirazını bildirdi. Bu etiraz ona qarşı siyasi təqiblərin daha da şiddətlənməsinə səbəb oldu. Çətin və mürəkkəb dövrdə Azərbaycana qayıdıb xalqı ilə birlikdə olmaq istəyən Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, iradəsini ortaya qoydu və vətənə döndü. 1990-cı il iyulun 20-də Bakıya qayıdan Heydər Əliyev iki gün sonra Naxçıvana yola düşdü.

### QƏBUL EDİLƏN TARİXİ QƏRARLAR

Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında Muxtar Respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan Parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul edildi. Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə oldu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul edildi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan KP-nin fəaliyyəti dayandırıldı və onun bütün strukturları ləğv edildi.

1991-ci il sentyabrın 3-də Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri seçildi və müvafiq qanunvericiliyə əsasən həm də Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini oldu. Muxtar respublikanın düşmən hücumundan və sosial-iqtisadi böhrandan xilası istiqamətində mühüm qərarlar qəbul edən dahi rəhbər digər tərəfdən Azərbaycanı müstəqil, xalqımızı firavan görmək istəyirdi. Ümummilli liderimiz Heydər Əliyevin Ali Məclisin Sədri olarkən dünya azərbaycanlılarını bir ideya ətrafında - Vətənə və xalqa xidmət uğrunda birləşməyə səsləməsi də bu istəkdən, bu arzudan irəli gəlirdi. Çünki xalq arasında sağlam ideologiyaya əsaslanan birlik olmadan ölkəni düşdüyü bəlalardan qurtarmaq və inkişaf yoluna çıxarmaq mümkün deyildi. 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul edilməsi, bu mənada, xüsusi əhəmiyyətə malikdir.

Ulu Öndər həmin dövrdə xarici iqtisadi əlaqələrin qurulması sahəsində də mühüm addımlar atıb, 1992-ci ildə qonşu Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına səfərlər edib, keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalayıb. Nəticədə hər iki dövlətlə iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər qurulub.

Muxtar Respublikanın dağılmış iqtisadiyyatının, xüsusilə də kənd təsərrüfatının dirçəldilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi də görkəmli dövlət xadiminin diqqət mərkəzində olub. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilib, bu islahatlar aqrar bölmədə irəliləyişlərə səbəb olub.

### AZƏRBAYCAN TARİXİNİN MÜHÜM HADİSƏSİ

Müstəqil Azərbaycanın Qurucusu Heydər Əliyev ən yeni tariximizin çətin anlarından şərəflə çıxaraq, müstəqilliyimizin gerçəkləşməsində və ictimai-siyasi həyatımızın bütün istiqamətləri üzrə inkişafın təmin edilməsində qarant rolunu oynadı. Ölkəmizin ictimai-siyasi həyatı, gələcəyi üçün daha mühüm bir hadisə 1992-ci il noyabrın 21-də yenə də Naxçıvanda baş verib: müstəqil Azərbaycanın ən qüdrətli partiyası olan Yeni Azərbaycan Partiyası yaradılıb. Azərbaycanın gələcəyinin təhlükə qarşısında qaldığı, dövlətimizin taleyinin həll olunduğu bir dövrdə yaranan Yeni Azərbaycan Partiyası milli dövlətçiliyimizin inkişafı üçün son dərəcə əhəmiyyətli olan yeni tarixi mərhələnin əsasını qoyub. Güclü sosial bazası, gerçəkliyə əsaslanan proqramı, ən önəmlisi isə Ulu Öndər Heydər Əliyev kimi lideri olan Yeni Azərbaycan Partiyasının siyasi səhnəyə çıxması iyirminci əsr Azərbaycan tarixinin mühüm hadisəsi idi.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycan dövlətçiliyinin formalaşması prosesinə təsirini göstərdi. YAP yaranandan, Azərbaycanın siyasi həyatında özünəməxsus rola malik olan təşkilat kimi qəbul edildi. Bunun da əsas səbəbi o idi ki, partiyanın rəhbərliyində Ulu Öndər Heydər Əliyev kimi Azərbaycan xalqının böyük hörmət və inam bəslədiyi Dahi Şəxsiyyət dayanırdı. YAP Azərbaycan dövlətinin müstəqilliyinin qorunub-saxlanılmasında və dövlətçiliyimizin inkişaf etdirilməsində müstəsna xidmətləri olan siyasi təşkilata çevrildi.

"Biz Azərbaycanda demokratik respublika, vətəndaş cəmiyyəti quraraq, sivilizasiyalararası cəmiyyət uğrunda mübarizə apararaq, ümumi dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən sonra, ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, milli ənənələrini nümayiş etdirə bilsin. Güman edirəm ki, Azərbaycan xalqının bu barədə həm tarixi, həm müasir potensialı olduqca böyükdür. Bunların hamısından istifadə olunarsa, Azərbaycan həm tam müstəqil dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik, hüquqi, ümumbəşəri dəyərlər əsasında qurulan demokratik bir cəmiyyət olacaqdır", - deyə Azərbaycanın Ulu Öndəri bildirmişdir.

### ZƏFƏR QAZANMIŞ AZƏRBAYCANIN YARATDIĞI REALLIQLAR

Bu gün ölkəmizdə Ümummilli Liderin əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində, Azərbaycan uğurla inkişaf edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən davamlı islahatlar sayəsində Azərbaycan özünün iqtisadi müstəqilliyinin təmin olunması yolunda inamlı addımlar atıb. Hər bir ölkənin inkişafında əsas rol oynayan sabitliyin möhkəmlənməsi əsasında Azərbaycanda iqtisadi imkanların genişlənməsi üçün biri-birindən əhəmiyyətli layihələrin icrası sürətləndirilir. Mükəmməl texnologiyamız, döyüş ruhumuzun yüksəkliyi, xalq-iqtidar birliyi, həmrəylik Azərbaycanı qalib dövlət kimi adını tarixə yazdı.

Əlbəttə ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 ilə yaxın dövr ərzində xarabazara çevrilmiş torpaqlarımız bu gün yenidən qurulur və böyük canlanma müşahidə olunmaqdadır. Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan ölkənin yeraltı və yerüstü sərvətlərinə qarşı yeridilən siyasi taktikadır. Bütün bunlara baxmayaraq, Azərbaycan dağıdılmış, talan edilmiş məkanları bərpa edərək, infrastruktur layihələri reallaşdırılır.

Bu gün Azərbaycan regionun, Avropanın və ümumilikdə, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən bir ölkəyə çevrilmişdir. Beynəlxalq təşkilatlar regiondakı bütün layihələrdə Azərbaycanın mövqeyini nəzərə alırlar. Ötən dövrdə uğurlu inkişaf tarixini yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir.

Müstəqil Azərbaycanın bütün sahələrdə qazandığı möhtəşəm nailiyyətlər Ulu Öndər Heydər Əliyev ideyalarının təntənəsi və milli tariximizin şanlı səhifələridir.

***Zümrüd BAYRAMOVA***

*Ermənistan tərəfi Azərbaycanla yekun sülh sazişini imzalamaq niyyətində qətiyyən görünmür. Bir neçə ay bundan əvvəl hansısa perspektivlər haqqında fikirlər var idisə, indi artıq sülh prosesi dalana dirənmiş kimi görünür. İşğalçı ölkənin hakimiyyəti bir növ sülh prosesinin perspektivini deyil, Cənubi Qafqazda yeni savaşın başlaması təhlükəsini ön plana çəkir. Mətbuat konfransında erməni baş nazir Nikol Paşinyanın səsləndirdiyi fikirlər də təsdiq edir ki, Ermənistan tərəfi yenə də manipulyasiya etmək niyyətindədir və bunun üçün də həmişə olduğu kimi ağ yalana əl atır, hansı ki, bu yalan bütövlükdə Ermənistanı uçuruma doğru aparır.*



# Uçuruma doğru aparan AĞ YALANLAR

### İşğalçı ölkənin manipulyasiya ənənəsinin növbəti təzahürü

İşğalçı ölkənin davamlı şəkildə silah əldə etməsi fonunda Paşinyanın Azərbaycanı guya İtaliyadan silah-sursat almaqda ittiham etməsi absurddur. Davamlı şəkildə Fransadan, ABŞ-dan, Hindistandan və bir çox digər ölkələrdən silah alan Ermənistan hakimiyyəti hansı üzlə belə bir ittihamla çıxış edir? Sual oluna bilər ki, axı silah almaq Ermənistanın nəyinə lazımdır və əgər bu ölkənin özü silah əldə etməkdə davam edirsə, başqalarını silah tədarükündə ittiham etməsi nəyə bənzəyir? Yəni, həqiqətən də bu barədə düşünə bilən, dərk edə bilən bircə dənə də erməni yoxdurmu Ermənistanın hakimiyyət komandasında ki, belə bir iddiada olmağın həyasızlıq olduğunu Paşinyana başa salsın? Üstəlik, axı Azərbaycan İtaliyadan nəqliyyat xarakterli təyyarə alıbsa, bunu silah kimi qələmə vermək, göstərmək də bir ölkə rəhbərinin tərzi olmamalıdır.

Silah-sursat məsələləri ilə bağlı Ermənistan tərəfi hər zaman özlərini yox, başqalarını, ələlxüsus da Azərbaycanı ittiham etmək üçün əldən-ayaqdan gedir. İşğalçı ölkə hakimiyyəti, başda məhz elə baş nazir Nikol Paşinyan özü olmaqla, rəsmi Bakını silahlanmada günahkar kimi göstərmək üçün bütün yalanlara əl atır. Bir ölkə rəhbərinin, Ermənistanın baş nazirinin mətbuat konfransında səsləndirdiyi fikirlər, regional həqiqətlərin təhrif edilməsi fonunda ağ yalan kimi diqqəti cəlb edir və işğalçı ölkənin manipulyasiya ənənəsinin növbəti təzahürü olaraq qəbul edilir.

### Həqiqətlərin təhrif edilməsi Ermənistan üçün hər zaman adi hal hesab olunub

Dəfələrlə şahidi olmuşuq ki, bədnam qonşularımız yalanı, uydurmanı çəkinmədən söyləməyi özlərinə rəva biliblər. Bütün dünyanın gözünün içinə baxa-baxa reallığa uyğun olmayan informasiyaları da yayımlamaqdan utanmayan haylar üçün həqiqətlərin zərrə qədər anlamı olmayıb. Uzun illər, hətta əsrlər boyu saxta məlumatları dövriyyəyə buraxan ermənilər üçün reallıqlar qətiyyən maraqlı hesab edilməyib. Çünki həmin reallıqlar onlara qətiyyən sərf etməyib. Haylar da öz sərfələri naminə, yəni, öz ambisiyalı maraqları naminə ancaq yalana əl atıblar. Ağ yalanla ərazi əldə etmək, həqiqətdən uzaq informasiyalara, yalana əl atmaqla dövlətçiliyə sahib olmaq haylar üçün yeganə çıxış yolu hesab edilib. Görünür, indi də öz dövlətlərini məhz yalanı alət olaraq istifadə etməkə qoruya biləcəklərini doğru hesab edirlər, amma bərk yanılırlar. Çünki atalar sözündə, zərb məsələdə də deyildiyi kimi, yalan ayaq tutar, amma yeriməz. Məhz qeyd olunan zərb məsələ uyğun olaraq, Nikol Paşinyanın da yalanları öz sələflərininki kimi nə ayaq tutan deyil, nə də yeriyən. Çünki əvvələ onların yalan olduğunu hamı bilir, digər tərəfdən də bu yalan tam zamanında ifşa edildiyi üçün heç bir anlam daşımır. Əslində, Paşinyan çoxdan başa düşməli idi ki, yalan üzərində qurulan dövlət də elə yalançı, abstrakt dövlət olmalıdır. Çoxdan başa düşməli idi ki, reallıqları etiraf etməməklə, danmaqla özünü də, ölkəsini də çətin duruma sürükləyir. Ən azından son dövrdə də olsa anlamalı idi ki, yalana əl atmaqla sülh sazişindən uzaqlaşmaq ölkəsi üçün, xalqı üçün, lap elə özü üçün yaxşı heç nə vəd etmir. Nikol Paşinyan və onun hakimiyyət komandası, eləcə də erməni cəmiyyəti belə yalanlarla marginallaşmış vəziyyətdə qalmada davam edir və yenə də çox şeylərdən məhrum olur. Bəli, məhrum olur. İlk növbədə sülh şəraitində, təhlükəsiz şəraitdə yaşayışdan məhrum olur, stabillik heç yuxusuna da girmir, iqtisadi əlaqələrdən, beynəlxalq layihələrdən uzaqda, kənarda qalır və yenə də tənəzzülə doğru irəliləyir. Bu baxımdan məhz Paşinyanın özünün timsalında hayların söylədikləri ağ yalan onları uçuruma doğru aparır. Amma bununla belə, ən böyük təəccüb doğuran odur ki, hayları hər zaman uçuruma doğru aparan yalan və həqiqətlərin təhrif edilməsi Ermənistan üçün hər zaman adi hal hesab olunub və yenə də belə hesab olunmaqdadır.

### Ənənəyə çevrilən saxtakarlıq

Saxta mənbələrə hər zaman istinad edən haylar bununla da tarix boyu, movcudluqlarının bütün dövrlərində saxtakarlıq ediblər. Belə çıxır ki, həmin saxtakarlıq onlar üçün ənənəyə çevrilib. İndi bu ənənəni, yəni, saxtakarlıq ənənəsini davam etdirmək görünür, Nikol Paşinyanın üzərinə düşüb, yaxud da belə bir yük indi də onun çiyinlərinə qoyulub. Əks halda, o öz mətbuat konfransında həqiqətə uyğun olmayan, yalan informasiyalar verməkdən çəkinərdi. Öz sələflərinin ənənəsini davam etdirmək əvəzinə, həqiqətləri etiraf edər, reallıqlardan danışardı. Amma biz bunun şahidi olmadıq, əksini müşahidə etdik. Onun şahidi olduq ki, erməni baş nazir Paşinyan da öz sələflərinin ənənəsini davam etdirməkdə, haylara məxsus yalanların, özü də ağ yalanların ayaq tutub yeriməsi üçün canfəşanlıq etməkdədir.

Özünün mətbuat konfransında səsləndirdiyi fikirlərdən birində Nikol Paşinyan həqiqəti təhrif etməklə, yalana əl uzatmaqla, saxtakarlıq etməklə, qeyd edir ki, Azərbaycan ÜDM-nin 17 faizini hərbi məqsədlərə xərcləyir. Halbuki, bu rəqəm, yəni, hərbi xərclər 4 faiz ətrafındadır və bunu erməni baş nazir özü də yaxşı bilir. Onu da yaxşı bilir ki, Ermənistanın hərbi xərcləri bundan da xeyli artıqdır. Bəs o zaman niyə yalan danışır? Niyə yalana əl atır? Nəyə görə saxtakarlıq edir? Maraqlıdır, yəqin ənənəni, saxtakarlıq ənənəsini davam etdirmək üçün. Axı bu ölkədə, bu toplumda saxtakarlıq çoxdan ənənəyə çevrilib və mövcudluqlarının əsas fəlsəfəsi də saxtakarlıqdan ibarət hesab olunur. Dünyanın gözünə kül üfürməkdən başqa bir işin, sənətin, nailiyyətin sahibi olmayan haylardan bir soruşan da yoxdur ki, görünməyən büdcə vəsaitlərinə, həmin vəsaitlərin hansı məqsədlərə sərf edildiyinə necə cavab vermək fikrindədirlər? Gör saxtakarlıq ənənəsi Nikol Paşinyanın gözünü necə tutubsa, görünməyən büdcə vəsaitləri və onların hansı məqsədlərə sərf edildiyi müzakirə mövzusu olmalı halda, başqalarının, ələlxüsus da Azərbaycanın büdcəsini, hərbi xərclərini müzakirə etməyə cəsarət edir.

Absurd müqayisələr və fərqli məqamlar

Sonuncu mətbuat konfransında Nikol Paşinyan öz ölkəsini Azərbaycanla müqayisə etdikdə də böyük səhvə yol verib. Çünki heç bir mənada Ermənistanı məhz Azərbaycanla müqaisə etmək olmaz, xüsusən də silahlanma, hərbi məsələlər baxımından bunu etmək absurddur. Nikol özünün mətbuat konfransında, "Azərbaycan silahlandığı halda Ermənistan bunu niyə etməməlidir", sualını səsləndirməklə, daha bir kobud səhvə yol verir. Ona görə kobud səhv edir ki, birinci növbədə, işğalçı ölkə ilə işğala məruz qalan ölkə arasında fərq qoymadan danışır. Halbuki, işğalçı Ermənistanın silah əldə etməsi ilə işğala məruz qalan və sonda da regionda sülhün təminatçısı olaraq çıxış edən ölkə bir-birindən tamamilə fərqlənirlər və bu ölkələr arasında fərq qoyulmalıdır. Paşinyan isə heç bir fərq qoymadan belə bir sualla diqqəti çəlb etməyə çalışır və hansısa mənada buna nail olur da. Məsələn, bütün dünya ictimaiyyətinin diqqətindən qaçmır ki, işğalçılığı dövlət siyasəti hesab edən dövlətin başçısı, lideri öz ölkəsinin silahlanmasını sülh danışıqları təklifləri ilə çıxış edən, sülh potensialını müzakirə etməkdə olan ölkə ilə həyasızcasına müqayisə edir.

Silah əldə edən Ermənistanın həmin silahdan işğalçılıq və təcavüz məqsədi ilə istifadə etməyəcəyinə kimsə təminat verə bilməz. Bu gün Ermənistanın arxasında duran, həmin ölkəni silahlandıran Fransa, ABŞ kimi dövlətlər də belə bir təminat vermək niyyətində deyillər. Çünki əvvəla, həmin dövlətlər də yaxşı bilirlər ki, haylar hələ də başqalarına məxsus olanı ələ keçirmək, özününküləşdirmək üçün nə oldu edərlər və bunun naminə silahlardan istifadə etmələri də gözləniləndir. Digər tərəfdən də axı onlar özləri hayların acgözlüyündən, mənimsəmək və özününküləşdirmək arzularından, zəbt etmək niyyətlərindən istifadə edərək, regionda qarışıqlıq yaratmaq, bulanıq suda da balıq tutmaq niyyətindədirlər deyə vəziyyətin necə olduğundan da xəbərdardırlar. Bir sözlə, hamı çox yaxşı bilir ki, Nikol Paşinyanın müqayisəsi absurd müqayisədir. İki ölkənin silahlanması bir-birindən köklü şəkildə fərqlənir və tamamilə fərqli məqamlar mövcuddur. Hətta Ermənistanı silahlandıran ölkələr unutmamalıdırlar, bilməlidirlər və nəzərə almalıdırlar ki, sülh təklifi ilə çıxış edən, sülh naminə danışıqlarda maraqlı olan, regionun təhlükəsizliyinin təminatçısı kimi çıxış edən Azərbaycanın deyil, işğalçı bir ölkənin silahlandırılmasına görə məsuliyyət daşıyırlar.

Manipulyativ metodlardan istifadə edilir

Azərbaycan Konstitisiyası ilə bağlı erməni baş nazirin öz mətbuat konfransında səsləndirdiyi iddiaların da ağ yalan olduğu öz təsdiqini tapır. Çünki Azərbaycanın hansısa bir ölkəyə qarşı ərazi iddiasının olmaması hər kəsə bəllidir. Bunu rəsmi Bakı dəfələrlə bəyan edib. Ölkə rəhbərimiz, cənab Prezident İlham Əliyev də öz növbəsində qeyd edib ki, bizim heç bir ərazi iddiamız yoxdur. Amma görünür, ermənilər, ələlxüsus da Ermənistan hakimiyyəti öz bildiyindədir və hələ də ərazi iddiası bəhanəsindən istifadə etmək niyyətindədir. Məsələ burasındadır ki, heç bir ərazi iddiası olmaması barədə Azərbaycan tərəfinin bəyanatlarından sonra erməni baş nazir Nikol Paşinyanın dediklərinin bir zərrə qədər də mənası qalmır. Əslində, Paşinyanın dediklərinin heç bir hüquqi əsasının olmaması da bəlli olur. Amma buna baxmayaraq, yenə də Ermənistan tərəfi, həmin ölkənin mövcud hakimiyyəti manipulyativ metodlardan istifadə edir.

Məlumdur ki, miatsum deyilən xəstə təfəkkür, anormal iddialar hələ də erməni cəmiyyətinin başını dumanlandırır. Bu təfəkkür erməni xalqını hələ də fəlakətlərə sürükləyir. İşğalçı ölkə üçün ən acınacaqlı hal isə odur ki, təkcə şovinist ermənilər deyil, hətta Ermənistanın Konstitusiyası belə miatsumu erməni xalqı qarşısında hədəf kimi müəyyən edir. Məsələ burasındadır ki, Ermənistan Konstitusiyasının dəyişdirilməsinin zəruriliyi barədə Azərbaycan tərəfi bildirəndə məhz həmin o xəstə təfəkkür, xəstə təxəyyül olan miatsum deyilənə son qoymaq barədə çıxış edir. Rəsmi Bakı bəyan edir ki, erməni xalqı referendum vasitəsilə miatsum məsələsinə də son qoymalıdır, Qarabağ məsələsinin də birdəfəlik bitdiyini qəbul etməlidir. Əslində, həqiqətən də regionda sülhün, təhlükəsizliyin, stabilliyin davamlı, hətta birdəfəlik olması, normal qonşuluq şəraitində yaşanılmas üçün bunun vacibliyini hamı bilir də, qəbul da edir. Bəs Ermənistan tərəfi nə edir? Şəxsən erməni baş nazir Nikol Paşinyanın sonuncu mətbuat konfransında səsləndirdiyi fikirlərdən də görünür ki, Ermənistan tərəfi buna tamamilə başqa kontekstdən baxır, başqa prizmadan yanaşır və sözün əsl mənasında, manipulyasiya edir. Bir zamanlar küçə nümayişlərində etdikləri manipulyasiyalardan yararlanaraq hakimiyyət kürsüsünü ələ keçirən əli sarıqlı, beli çantalı küçə nümayişçisinin deyəsən dişində şirə qalıb deyə, yenə də manipulyasiya etmək niyyətindədir. İşğalçı ölkənin baş nazirinin səsləndirdiyi fikirlərdən də görünən odur ki, rəsmi İrəvan yenə də öz ənənəsinə uyğun olaraq, manipulyativ metodlardan istifadə edir. Yenə də ağ yalana əl atılır. Amma başda elə erməni baş nazirin özü olmaqla, haylar hələ başa düşə bilmirlər ki, bu ağ yalanlar onları uçuruma doğru aparır.

**İnam Hacıyev**

# Azərbaycan Milli Məclisinə seçkilər dünya mediasında






















Serbiyanın kütləvi informasiya vasitələri sentyabrın 1-də keçirilən Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdən bəhs edən materialları yayıb. “RTS”, “Politika”, “Tanjug”, “Novosti”, “SRNA”, “b92”, “N1info”, “Gradske İnfo” kimi mətbu orqanlarında dərc edilən yazılarda 125 deputat yeri olan qanunverici orqana seçkilərdə 990 namizədin iştirak etdiyi və səsvermənin 6478 seçki məntəqəsində keçirildiyi bildirilir.

Qeyd olunur ki, Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın paytaxt Bakıda seçki məntəqəsində səs veriblər. Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyası inamlı qələbə qazanıb. Diqqətə çatdırılır ki, bu parlament seçkilərinin ilk dəfə olaraq Azərbaycanın bütün ərazilərində, o cümlədən 2020-ci ilə qədər Ermənistanın işğalı altında qalmış ərazilərdə keçirildiyi bildirilir.

Sentyabrın 1-də Azərbaycanda keçirilən növbədənkənar parlament seçkiləri dost ölkələrin mətbuatının diqqət mərkəzində olub. Qazaxıstan mediası Azərbaycanın bütün suveren ərazisində keçirilən seçkiləri geniş işıqlandırıb.

“Kazinform” nəşri bildirir ki, seçkiləri ATƏT, MDB, ŞƏT və TDT kimi təşkilatların nümayəndələri də daxil olmaqla 598 beynəlxalq, həmçinin 112 749 yerli müşahidəçi izləyib. Eyni zamanda, 65 minə yaxın yerli müşahidəçi 25 siyasi partiyanı təmsil edib. Qeyd olunur ki, parlament seçkiləri ilə bağlı “exit-poll” keçirmək üçün Mərkəzi Seçki Komissiyasında üç təşkilat - Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası, “Tərəqqi” Sosial Araşdırmalar İctimai Birliyi və Sosioloji Araşdırmalar Mərkəzi qeydiyyatdan keçib.

“Newtimes.kz” portalı Azərbaycan Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahova istinadla yazır: “Ümumilikdə, Milli Məclisə seçkilərdə 990 nəfərin namizədliyi qeydə alınıb. Onlardan 305-i siyasi partiyalar tərəfindən irəli sürülüb, 371-i isə partiya mənsubiyyətinə baxmayaraq, seçkilərdə müstəqil namizəd kimi iştirak edib. Qalanları öz namizədliyini irəli sürən şəxslərdir”.

“İnbusiness.kz” saytındakı məqalədə qeyd edilib ki, MDB müşahidə missiyasının rəhbəri Leonid Anfimov bir sıra seçki məntəqələrinə baş çəkdikdən sonra seçkilərin yüksək səviyyədə təşkil olunduğunu bəyan edib. Portal onun sözlərini sitat gətirib: “Uzunmüddətli müşahidəçilərin məlumatlarına əsasən, habelə seçki ərəfəsində və səsvermə günü gördüklərimi nəzərə alaraq qeyd etmək istərdim ki, Azərbaycanda parlament seçkiləri yüksək səviyyədə təşkil olunub”.

Sentyabrın 1-də Azərbaycanda keçirilən növbədənkənar parlament seçkiləri ərəb ölkələri media orqanlarının diqqət mərkəzində olub. “Əl Vatan” qəzeti “Azərbaycan işğaldan azad olunmuş ərazilərində parlament seçkiləri keçirdi” sərlövhəli məqaləsində Prezident İlham Əliyevin diplomatik və sərkərdəlik məharəti sayəsində torpaqların işğaldan azad olunmasından sonra ölkənin bütün suveren ərazisində ilk dəfə qanunverici orqana seçkilər keçirildiyi diqqətə çatdırılıb. Qeyd olunub ki, seçkilərdə hakim Yeni Azərbaycan Partiyası böyük uğur qazanıb. Müəllif bu seçkilərin dünyada fəal sülhsevər siyasət aparan Azərbaycanın gələcək inkişafında mühüm mərhələ olduğunu vurğulayıb.

“Əl Arabi” qəzetinin “Azərbaycanda hakim partiya parlament seçkilərində qələbə qazandı” sərlövhəli məqaləsində diqqətə çatdırılıb ki, 125 deputat yeri olan qanunverici orqana seçkilərdə 990 namizəd iştirak edib və Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyası inamlı qələbə qazanıb. Məqalədə seçki prosesinin sakit və şəffaf şəraitdə keçdiyi, beynəlxalq müşahidəçilərin səsvermənin nəticələrinə yüksək qiymət verdikləri qeyd olunub.

“Əl Bələd”, “Arab48”, “Saw Beirut”, “Əl Masr Əl Yom” və digər kütləvi informasiya vasitələri də Azərbaycan Milli Məclisinə növbədənkənar seçkilər haqqında məqalə və xəbərlər dərc edib.

Bundan başqa, Milli Məclisə keçirilmiş növbədənkənar seçkilər Çin mediasının da diqqət mərkəzində olub. Dünyanın ən nüfuzlu xəbər agentliklərindən biri olan Sinxuanın “Azərbaycanın hakim partiyası parlamentdə üstünlüyünü qoruyub” sərlövhəli məlumatında Mərkəzi Seçki Komissiyasının (MSK) ilkin nəticələrinə əsasən, Yeni Azərbaycan Partiyasının Milli Məclisdə 68 yer qazandığı qeyd olunub. Bildirilib ki, Mərkəzi Seçki Komissiyası 5895 məntəqə üzrə səsvermənin ilkin nəticələrini açıqlayıb. Səsvermədə seçici fəallığının 37,27 faiz təşkil etdiyi qeyd olunub.

Çin Mərkəzi Televiziyasının (CCTV) internet səhifəsində, Çin Kommunist Partiyasının rəsmi nəşri olan “Jenmin Jibao” qəzetində, dünya üzrə milyonlarla oxucusu olan nüfuzlu “China Daily” qəzetinin internet səhifəsində növbədənkənar parlament seçkisində Yeni Azərbaycan Partiyasının qələbəsindən söz açılıb.

# “Azərbaycanda azad və ədalətli seçkilər baş tutub”

## *Bir sıra beynəlxalq müşahidəçilər sentyabrın 1-də Azərbaycanda keçirilən növbədənkənar parlament seçkiləri barədə rəylərini açıqlayıblar*

***Bir sıra beynəlxalq müşahidəçilər, xarici ölkələrin nüfuzlu siyasi xadimləri sentyabrın 1-də Azərbaycanda keçirilən növbədənkənar parlament seçkiləri barədə rəylərini açıqlayıblar. Onların fikirlərini diqqətinizə çatdırırıq. “Ümid edirəm ki, Milli Məclisə 1 sentyabr seçkilərinin nəticələri Azərbaycanın gələcək inkişafına töhfə verəcək və ölkələrimiz arasında münasibətlərin daha da möhkəmləndirilməsinin rəhni olacaq. Təbrik edirəm və yeni çağırış Azərbaycan parlamentinə nailiyyətlər arzu edirəm.”***




Bu barədə AZƏRTAC-a müsahibəsində Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Əfqan Ala bildirib. Onun sözlərinə görə, Türkiyə ilə Azərbaycan arasında münasibətlər Ümummilli Lider Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlamı kontekstində uğurla inkişaf edir, Türkiyənin Ədalət və İnkişaf Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında sıx əlaqələr, müxtəlif məsələlər üzrə iki aparıcı siyasi qüvvələrin mövqelərinin oxşarlığı qardaş ölkələr arasında fəal qarşılıqlı əlaqələrin davam etdirilməsinin qarantıdır.

“1 sentyabr seçkilərində qazandığı uğur münasibətilə Yeni Azərbaycan Partiyasını təbrik edirəm. Əminəm ki, Azərbaycandan olan qardaşlarımızla yeni əhəmiyyətli nailiyyətlər və daha sıx əməkdaşlığa nail olacağıq”, - deyə Ala bildirib.

Türkiyənin iqtidar partiyasının nümayəndəsi sentyabrın 1-də seçkilərin ilk dəfə Azərbaycanın bütün ərazisində, o cümlədən işğaldan azad edilmiş rayonlarında keçirilməsi faktını da yüksək qiymətləndirib. “Bu seçkilər qardaş Azərbaycanın inkişafında tarixi mərhələ oldu. Ümid edirəm ki, Azərbaycanın Milli Məclisinə seçkilərin nəticələri təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının rifahına xidmət edəcək”, - deyə o qeyd edib.

“Parlament seçkiləri ölkə qanunvericiliyinə tam uyğun şəkildə keçirilib və Azərbaycan xalqının iradəsini əks etdirib. Bu, Azərbaycanın bütün ərazisində baş tutmuş tarixi seçkilərdir.” Bunu sentyabrın 2-də növbədənkənar parlament seçkilərinin yekunlarına dair mətbuat konfransında Rusiyanın Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov deyib. Onun sözlərinə görə, müşahidələrin nəticəsi kifayət qədər aydındır - seçkilər Azərbaycan qanunvericiliyinə tam uyğun şəkildə keçirilib, onları tam azad, demokratik, hüquqi, ədalətli və rəqabətli adlandırmaq olar.

“Onlar beynəlxalq təşkilatların son onilliklər ərzində müxtəlif növ seçkilərlə bağlı hazırlanmış tələblərinə tamamilə uyğundur və ən əsası, bu seçkilər Azərbaycan xalqının iradəsini tam şəkildə əks etdirir”, - deyən Markov əlavə edib ki, yeganə tövsiyə seçki məntəqələrində bütün namizədlərin əks olunduğu plakatların olmasının daha ciddi şəkildə təmin edilməsidir.

Rusiya Dövlət Dumasının deputatı Alla Polyakova deyib: “Mən 2021-ci ildən Dövlət Dumasının deputatıyam və əməkdaşlıq əlaqələrinin qurulduğu bəzi həmkarlarımın yenidən Azərbaycan parlamentinə deputat seçilməsindən məmnunam. Azərbaycanda dördüncü dəfədir seçkilərdə müşahidəçisi kimi iştirak edirəm və seçki prosesinin təşkilindən razıyam”. Rusiyalı deputat diqqəti bir çox seçki məntəqələrinin məktəblərdə yerləşməsi faktına çəkib. O əlavə edib: “Əminik ki, Bakının bir çox məktəblərində rus bölməsi var. Ölkənin təhsil sisteminə rus dilinin öyrənilməsi də daxildir”. A.Polyakova Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında parlamentlərarası dostluq qrupunun uğurlu fəaliyyətinin gələcəkdə də davam edəcəyinə əminliyini ifadə edib.

Rusiyalı müşahidəçi, Xəzər Strateji Araşdırmalar İnstitutunun baş direktoru İqor Korotçenko seçkilərin yekunu ilə bağlı deyib: “Dünən Bakı və onun ətraf rayonlarında 15-ə yaxın seçki məntəqəsinə baş çəkdik. Biz (müstəqil Rusiya müşahidəçiləri qrupu) seçki prosesinin aydın təşkilini, seçki komissiyası üzvlərinin yüksək hazırlıq səviyyəsini, seçkilərin qüsursuz təşkilini qeyd edə bilərik. Bu, dürüst, ədalətli, legitim və dünyada mövcud olan seçki texnologiyalarının bütün meyarlarına cavab verən səsvermə prosesi idi”.

İ.Korotçenko vurğulayıb ki, bu baxımdan Azərbaycan öz siyasi sisteminin mükəmməlliyini, sabitliyini bir daha nümayiş etdirdi: “Bir çox dövlətlərin sarsıldığı indiki təlatümlü dünyada Azərbaycan belə bir sabitlik, firavanlıq və irəliyə doğru inamla hərəkət edən bir adadır. Bunu bir daha təkrar edirəm, Azərbaycanın mövcud çağırışlara cavab verən və Prezidentin rəhbərliyi ilə Azərbaycan xalqının irəliyə doğru hərəkətinin əsasını təşkil edən siyasi sistemi böyük ölçüdə tərəqqini təmin edir”.













“Bir çox ölkələr, xüsusən də Qərb dövlətləri suveren dövlətlərdə ictimai-siyasi proseslərin inkişafını öz nəzarəti altına almağa çalışır. Bu baxımdan Azərbaycana təzyiq etmək əbəsdir. Fransa və digər dost olmayan ölkələr nə qədər səy göstərsələr də, mən tam əminəm ki, nəticə, o cümlədən sentyabrın 1-də keçirilən parlament seçkiləri Azərbaycanın istənilən xarici təsir amillərinə müqaviməti olacaq”, -deyə İ.Korotçenko qeyd edib. Onun sözlərinə görə, Azərbaycan bu gün beynəlxalq ictimaiyyət tərəfindən tələb olunan qlobal tendensiyaları müəyyən edən ölkədir.

“Bu gün obyektiv olaraq Cənubi Qafqaz regionu ən mühüm geosiyasi və iqtisadi əhəmiyyət kəsb edir. Bu, dünyamızın gələcəyinin qəti şəkildə asılı olacağı bölgələrdən biridir. Rusiya Prezidenti Vladimir Putinin bu yaxınlarda Azərbaycana dövlət səfərini və Prezident İlham Əliyevlə apardığı danışıqları qeyd etmək çox vacibdir. Bütün bunlar o deməkdir ki, ölkələrimiz çiyin-çiyinə daha yaxşı gələcək qurur. Biz irimiqyaslı iqtisadi ticarət əməkdaşlığı layihələrini, enerji layihələrini həyata keçirəcəyik. Bu baxımdan, təbii ki, Rusiyanın ekspert icması və siyasi elitası Azərbaycanda parlament seçkilərinin uğurla keçirilməsini alqışlayır”, - deyə rusiyalı ekspert əlavə edib.













Korotçenko, həmçinin COP29-un Azərbaycanda ən yüksək səviyyədə keçiriləcəyinə əminliyini ifadə edib. O bildirib: "Noyabrın 11-dən 22-dək Bakı dünyanın mərkəzinə çevriləcək. Bu tədbir Azərbaycan dövlətinin gücünü, qüdrətini, Prezident İlham Əliyevin strateji vizyonunu bir daha nümayiş etdirəcək".

Moskva Vilayət Dumasının deputatı, Ekologiya və təbii sərvətlər və mülkiyyət münasibətləri komitəsi sədrinin birinci müavini Aleksandr Roqov deyib: "Üçüncü dəfədir ki, müşahidəçi kimi seçkilərdə iştirak edirəm. Üstəlik, mən buraya forumlarda iştirak etmək üçün gəlmişəm. Azərbaycan bütün nümayəndə heyətləri üçün çox qonaqpərvər ölkədir. Qeyd etmək istərdim ki, səhər saatlarından səsvermə məntəqələrini gəzməyə başladıq, vətəndaşların əksəriyyəti səsverməyə gəlirdi. Seçkilər yüksək səviyyədə və qanunlar çərçivəsində, beynəlxalq standartlara uyğun keçirilib".

"Altı qrupdan ibarət nümayəndə heyətimiz Bakıda yerləşən müvafiq məntəqələrdə keçirilmiş seçki prosesində müşahidəçi qismində iştirak edib. Keçirilən müşahidə ölkə qanunvericiliyinə, habelə seçkilərin təşkili və keçirilməsinə dair beynəlxalq standartlara əsaslanan qanunlara və qabaqcıl təcrübəyə uyğun olaraq aparılıb."

Bu açıqlama ilə Qoşulmama Hərəkatı Gənclər təşkilatının müşahidə missiyasının üzvü Jakop Eyeru növbədənkənar parlament seçkilərinin ilkin nəticələri ilə bağlı keçirilən mətbuat konfransında çıxış edib.

O bildirib ki, nümayəndə heyətinin üzvləri 7, 15, 16, 17 saylı seçki dairələrinin bir sıra seçki məntəqələrində seçki prosesini sona qədər izləmiş, ümumilikdə isə 54 seçki məntəqəsində baş tutmuş seçki prosesinin hər bir mərhələsinin monitorinqində yaxından iştirak edib.

"Səsvermə bülletenlərinin hesablanması və nəticələrinin elan edilməsi Seçki Məcəlləsində nəzərdə tutulmuş qaydalara və standartlarına uyğun olaraq aparılıb. Seçki məntəqələrində seçki hüququna malik olan vətəndaşların inklüziv iştirakını və yüksək seçici fəallığını müşahidə etdik. Müşahidəçilər təsdiqləyib ki, bütün təyin edilmiş seçki məntəqələrində səsvermə zamanı şəffaflıq və legitimlik meyarlarına cavab verən azad və ədalətli seçkilər baş tutub. Müşahidəçilər həm milli, həm də beynəlxalq nümayəndə heyətinə obyektiv müşahidələrin aparılması üçün lazımı inzibati dəstəyin göstərildiyini qeyd ediblər", - deyə müşahidə missiyasının üzvü vurğulayıb.

"Növbədənkənar parlament seçkilərində biz heç bir manea, məhdudiyyət olmadan bir neçə seçki məntəqəsində olduq. Səbail, Nəsimi və Suraxanıda yerləşən seçki məntəqələrində müşahidə apardıq. Seçkilərdə sülh səviyyəsində demokratik prosesin həyata keçirildiyini gördük."

Bu fikirləri də Malayziya Senatının sədr müavini Nur Cazlan bin Mohamed növbədənkənar parlament seçkilərinin yekunları ilə bağlı sentyabrın 2-də keçirilən mətbuat konfransında deyib.

"İnsanlara seçki məntəqələrində ədalətli münasibətin göstərildiyini, tam azad bir seçimə malik olduqlarını, öz demokratik səsvermə hüquqlarından necə istifadə etdiklərinin şahidi olduq", - deyə Malayziya Senatının sədr müavini vurğulayıb.

O, Azərbaycanda beynəlxalq müşahidəçi kimi iştirak etdiyi ikinci seçki olduğunu diqqətə çatdırıb: "Fevral ayında keçirilən prezident seçkisində də iştirak etmişdim. Ötən dəfəki kimi bu dəfə də seçkilərin yüksək səviyyədə keçirildiyinin şahidi olduq".

İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının rəhbəri, Pakistan Milli Assambleyasının üzvü Malik Saif ul Maluk Xoxar bəyan edib ki, "düşünürəm ki, demokratik prosesə inam bizim partiyaları yaxşı bir nöqtəyə gətirib çıxaracaq. Azərbaycanda seçkilər prosesi olduqca şəffaf və açıq keçdi, demokratik dəyərlərə sadiqlik müşahidə olundu." "Hazırda Pakistan Milli Assambleyası İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasında rəhbərlik edir. Bunun əsasında dövlətlərimizin rifahı istiqamətində çalışacağıq. Çox sevindirici haldır ki, Azərbaycan seçiciləri fəallıq nümayiş etdirdi. Bir daha Azərbaycan xalqını bu uğurlu seçkilərin keçirilməsi münasibətilə təbrik edirəm. Biz əminik ki, bu təşkilat çərçivəsində əməkdaşlığımızı davam etdirəcəyik, bölgədə stabilliyin və rifahın inkişafına töhfə verəcəyik", - deyə Pakistan Milli Assambleyasının üzvü bildirib.

"Səsvermə prosesində gənclərin fəal iştirakının şahidi olduq. Bu fəallıq dövlətin gənclərə yaratdığı şəraitdən onların razı qaldığını göstərir." Bunu isə İtaliya deputatlar palatasının üzvü Nayke Qruppioni Azərbaycanda növbədənkənar parlament seçkilərinin nəticələri ilə bağlı sentyabrın 2-də keçirilən mətbuat konfransında söyləyib.

Xanım Qruppioni qeyd edib ki, gənclərin və qadınların səsvermə prosesində iştirakı onların hökumətin apardığı siyasəti izlədiklərini göstərir. "Məncə, hər ölkənin siyasəti belə olmalıdır. İnsanlarla söhbət edərkən onların verdiyi səsin önəmini anladıqlarını müşahidə etmək çox önəmli idi. Mən bir çox məntəqədə müşahidə apardım və orada gördüklərimdən məmnun qaldım. Xüsusilə məntəqə komissiyalarının içində qadınların iştirakı məni çox sevindirdi",- deyə italiyalı müşahidəçi vurğulayıb.

"Seçki məntəqələrində qadın sədrlərin çox olması diqqətimi xüsusi olaraq çəkdi. Mən dünyada qadınların ictimai-siyasi proseslərdə iştirakını daim diqqət saxlayıram. Azərbaycanda qadın hüquqlarına olan hörmət məni təsirləndirdi",- deyə Nayke Qruppioni bildirib. Onun sözlərinə görə, seçicilərə rəngsiz mürəkkəbin tətbiq olunması Azərbaycanda seçkilərin şəffaf keçirilməsinə təminat verildiyini sübut edir. İtaliya parlamentarisi əlavə edib ki, təmsil olunduğu müşahidə missiyası Azərbaycandakı seçki prosesinin demokratik qaydalara uyğun keçirildiyi qənaətindədir.

"Can Azərbaycanda Milli Məclisə seçkilər zamanı yaxın 5 ildə ölkəni parlamentdə təmsil edəcək 125 deputatın seçilməsi prosesində iştirak etməkdən məmnunluq duyuruq.

Vətəndaşların səsinin eşidildiyi və iradəsini ortaya qoyduğu səsvermə prosesi hər bir fərd üçün onun toxunulmaz haqqıdır. Bu, həm də çox böyük məsuliyyətdir." Bu barədə Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) nümayəndəsi İbrahim Halil Korkmaz (AKP üzvü) sentyabrın 2-də Bakıda keçirilmiş mətbuat konfransında deyib.

"Azərbaycan Mili Məclisinin dəvəti ilə Ədalət və İnkişaf Partiyası rəhbərinin siyasi münasibətlər üzrə müavini olaraq, həmçinin Kamboca Xalq Partiyasının nümayəndəsi Torung Çeyviyesna ilə birlikdə Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) olaraq Bakıya gəlmişik. Təşkilatımız Asiyada demokratik dəyişikliklərdə böyük rolu olan önəmli bir qurumdur. Asiyanın ən böyük siyasi qruplarından hesab edilən ICAPP 50-dək ölkədən 22 siyasi partiya və 350-dən çox üzvü bir araya toplayır.

Sentyabrın 1-də Azərbaycanda baş tutan parlament seçkiləri, həmçinin Qarabağda 54 məntəqədə ilk dəfə gerçəkləşdi. Xankəndi başda olmaqda Azərbaycanın bütün ərazisində 50 faizlik fəallıq sərgiləndi və xalq qazandığı qələbəni taclandırdı. Azərbaycan üzrə 125 bölgədə həyata keçirilən seçkilər prosesində 6500-dək seçki qutusu qurulmuşdu. Milli Məclisdə 125 deputat yeri uğrunda 990 namizəd mübarizə aparırdı.

Səsvermə günü səhər saat 8:00-dan etibarən iki fərqli qrupa böldündük. On altı seçki məntəqəsini ziyarət etdik. Müşahidələrimizə əsasən deyə bilərik ki, isti hava və bazar günü olmasına baxmayaraq insanlar seçkiyə aktiv şəkildə gəlirdi.

# Vətəndaşın siyasi marağı demokratiyanın uğurudur

***Seçki, bir cəmiyyətin strukturunun var olması üçün vacib addımdır. Seçici fəallığı isə bir xalqın özünü ifadəetmə göstəricisidir. Əgər səs vermirsənsə və bunu gərəksiz hesab edirsənsə, bu, həm özünün, həm övladlarının, həm də xalqın gələcəyinə biganə olduğunun göstəricisidir. Seçkilərdə çoxluq səs verməsə, o xalqın özünü idarə etməsi də mümkün deyil. Axı bu zaman sənin səs haqqın, söz haqqın olmur.***



Ölkədə baş verən ən ali vəziyyətlərdə belə etinasız qalırsansa, sonra demokratiya gözləmək bir az gülməli deyilmi? Ona görə də səs vermək, səsini eşitdirmək, "mən də varam" demək hər birimizin vətəndaşlıq borcudur. Demokratiya bunu tələb edir. Əksi olarsa, sözdə demokratiyadır deməli. Səsvermə xalqın öz səsini eşitdirməsinin, tələbini dilə gətirməsinin ən təsirli yollarından biridir. Xalq öz səsini eşitdirməlidir, çünki ölkə xalqındır. Xalq seçkiyə getməlidir, çünki seçiləcək lideri özü seçməlidir.

Əksəriyyət belə vəziyyətlərdə düşünə bilər ki, heç kim onun bir səsinə möhtac deyil, bir səs heç nəyi dəyişmir. Amma bir səs elə bir səs deməkdir, bir səs başqa bir səslə birləşəndə iki səs olur. Daha sonra başqa səslərlə çoxluq yaranır. Səsvermə, insanların üzərində yaşadığı torpağın, qaynayıb-qarışdığı bir cəmiyyətin mövcud olması deməkdir. Səs vermək, bizi bir fərd kimi qəbul edən dövlətə olan vətəndaşlıq borcumuzdur.

Seçkilərdə verdiyimiz səslər, əslində, vətəni qorumaq, vətənin xalqa aid olduğunu göstərmək üçün verilir. Hər kəs öz fikrini bildirir, səsini eşitdirir. Səsvermə demokratiyanın tələbidir. Vətəndaşlıq və demokratiya bir-biri ilə bağlı anlayışlardır. Səs vermək isə çevrədən öyrənilən bir davranışdır. Əgər siz səsverməni gərəksiz, lazımsız hesab edirsinizsə və heç vaxt seçkilərdə iştirak etmirsinizsə, o zaman sizin çevrənizdəkilərə də bu davranışınız sirayət edəcək. Xüsusilə, yeniyetmə və gənclərin bu məsələdə tərəddüdləri yaranacaq. Çünki onlar gördüklərini tətbiq edirlər. Seçkilərdə iştirak etməyən ata və ana, ailədə böyüyən uşaqlar üçün yanlış örnəkdir.

Demokratiyanın uğuru, vətəndaşların siyasətə olan marağı və idarəetmədə iştirak istəkləridir. Demokratik bir ölkənin idarəetməsində xalqın fikri əhəmiyyətlidir, seçkilər də bunun üçün var. Lakin xalq o idarəetmədə iştirak etməyəndə vəziyyət qəlizləşir. Bəzi ölkələrdə zorakı səsvermə sistemləri də mövcuddur. Lakin bunu doğru addım hesab etməyən siyasi şərhçilər vətəndaşı zorla seçkiyə gətirməyin, əslində, demokratiyaya zidd olduğunu deyirlər. Doğrudur, vətəndaşı seçkidə iştirak etməyə məcbur edən ölkələr və idarə üsulları var, lakin qələm seçicinin əlindədir və o istərsə səs verəcək. Ona görə də məntəqəyə zorakı gətirilən seçici dövlət üçün faydalı olmaz.

Bizə aydın zəkalı, nə istədiyini bilən, sərbəst seçimini edən seçici lazımdır. Demokratiya bunu tələb edir. İnsanları, seçkini vacib hesab edən, hər kəsin iştirakının vacib olduğunu anlayan bir cəmiyyətin üzvləri kimi yetişdirmək lazımdır. Fəal seçici demokratiyanın təməllərindən biridir. Seçici seçkiyə məcbur olduğu üçün yox, seçmək istədiyi üçün getməlidir. Belə olan halda daha adil seçim edəcək, daha obyektiv qərar verəcək.

Seçici səs verərkən, özünü və xalqını təmsil etdiyini düşündüyü, dövlətin, cəmiyyətin təhlükəsizliyini təmin edə biləcək bir namizədə səs verir. "Mənim səsim nəyi dəyişəcək ki?!", deməyin, bir səs çox şeyi dəyişə bilər. Səs verərkən strateji düşünmək lazımdır: bu namizəd mənim xalqım üçün nə qədər faydalı olacaq? Unutmayın, uzaqgörən seçici dövlətin gələcəyini planlayır, kor-təbii səs verən seçici isə cəmiyyəti bilinməyən gələcəyə sürükləyir.

Biz bu gün varıq, sabah yox. Valideyn və vətəndaş kimi hamımızın bir missiyası var - övladlarımızın və onların yaşayacağı cəmiyyətin sabahını işıqlı qurmaq. Valideynlərin seçki savadı, seçici həssaslığı onların gələcəyini xilas edir. Bu prioritet, tək prezident seçkiləri üçün keçərli deyil, bütün seçkilər üçün eyni dərəcədə əhəmiyyətlidir.

***Lalə Mehralı***

# "Bakıda keçiriləcək COP29-dan taleyüklü məsələlərin həlli asılıdır"




"Azərbaycanda COP29-a hazırlıq işləri nəzərdə tutulmuş qaydada davam edir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib. O bildirib ki, burada əsas məsələ ondan ibarətdir ki, ölkə belə böyük, mötəbər məclisi qarşılayan tərəf kimi ilk növbədə təşkilatçılıq, logistika, hətta ideoloji baxımından belə hazır olmalıdır: "İdeologiya ondan ibarətdir ki, bütün dünya birliyi iqlim sağlamlığı uğrunda birləşməlidir, mütəşəkkil olmalıdır, öz qüvvələrini səfərbər etməlidir ki, karbon qazlarının və zərərli maddələrin hamısının atmosferə buraxılmasının qarşısı alınsın. Burada ölkələrin göstəriciləri nəzərə alınmalıdır. Çünki ilk növbədə ənənəvi enerji sahəsində baş verən proseslər, neft, qaz hasilatı həmişə ekoloji cəhətdən natəmiz, zərərli maddələrin havaya buraxılması ilə əlaqəlidir. Azərbaycan dövləti, təşkilatçı tərəf kimi artıq elə edir ki, bizdə yaşıl enerjiyə keçid ləngiməsin.

Təsadüfi deyil ki, dövlət rəhbərinin iştirakı ilə artıq Qarabağ bölgəsində prosesləri sıfırdan başlayırıq, onları bərpa edirik, şəhərlərimizi yenidən qururuq. Çalışacağıq ki, o bölgədə ümumiyyətlə, istifadə olunan enerji yaşıl xətt üzrə əldə olunsun. Bu, ekoloji cəhətdən çox təmiz texnologiyadır. Digər tərəfdən də bərpa olunan mənbələrin resursuna söykənən yanaşmadır.

Ötən COP28 Birləşmiş Ərəb Əmirliklərində baş verdikdə orada qalmaqallı vəziyyətlər yaşandı və bütün iştirakçılar arasında, hətta dediqodular da var idi ki, necə olur ki, bu ölkə iqlim təmizliyi uğrunda tədbiri keçirir, amma ənənəvi sahəyə aid kontraktları yeniləyir, bu, yenilənmə, saflaşma məramına ziddir".

"Azərbaycan bu proseslərin hamısını nəzərə alır. Biz bir tərəfdən də bilirik ki, gələn mütəxəssislər, ekologiya sahəsindəki tədqiqatçılar, bilikli insanlar ilk növbədə təşkilatçı ölkənin xasiyyətnaməsinə diqqətlə yanaşacaqlar. Görəcəklər ki, Azərbaycan nə dərəcədə məhdudlaşdırıcı prosesləri təmin edə bilir. Yəni zərərli maddələrin atmosferə buraxılmasının qarşısını ala bilir. Digər tərəfdən hansı texnologiyalara üstünlük verir, nəhayət neft-qaz ölkəsi olaraq o ənənəvi mənbələrin istismarı və istifadə olunmasının qarşısını məhdudlaşdırır. Bu işlərin hamısında biz çox böyük təcrübə əldə etmişik. Artıq lazımi tədbirləri də görürük ki, "baş ağrısı gətirən" problemlərin qarşısı alınsın. Əgər Azərbaycan bu işdə öncülük edirsə, çalışacaq ki, həm tədbir yüksək səviyyədə keçirilsin, həm də ümumi razılaşmanın meydana çıxması, ərsəyə gəlməsi məhz Bakıda baş versin. Çünki ölkələr hamısı vahid sənədə imza atmalıdırlar ki, həm maliyyə dəstəyi təmin olunsun, həm də fəaliyyətdə artıq effektiv nəticələr əldə olunsun. Çünki Bakıda keçiriləcək COP29-dan taleyüklü məsələlərin həlli asılıdır.

Biz çalışacağıq ki, bütün sahələrdə olduğu kimi bu sahədə də ölkə kimi özümüzü yüksək səviyyədə təqdim edək. Digər tərəfdən də ortaya çıxara bildiyimiz işlək vəziyyəti, mexanizmləri bütün ölkələrin gözləntilərinə cavab verə biləcək tərzdə təmin edək. Azərbaycan bu vəzifənin həm məsuliyyətini, həm dərinliyini dərk edir və bu istiqamətdə lazımi işləri görür ki, həqiqətən də, biz həm də dünya birliyinə sözügedən sahədə yaxşı örnək göstərə bilək. Bunun da gələcəyimiz üçün çox böyük əhəmiyyəti var" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

MÜNASİBƏT



**Elçin Bayramlı**

# Reklamlar psixotron terror elementidir

***Televiziya getdikcə öz mahiyyətini, mədəniyyət məbədi funksiyasını itirmək üzrədir. Buna səbəb olan əsas amillər isə tv-lərin özəl olması, yəni sırf kommersiya təşkilatı olaraq biznes marağından çıxış etməsidir. İctimai məsuliyyət və cəmiyyətin maraqları sıfıra düşüb.***

Tamaşaçılar televiziyalarda şou və reklam əlindən cana yığılıblar. Bu problemi çoxsaylı telekanalların olması səbəbindən azalda bilirlər. Yəni, pultu əlində hazır saxlayırsan, reklam başlayan kimi çevirirsən başqa kanala. Beləliklə, reklamlara heç kim baxmır və demək olar ki, reklam verənlərin pulu batır.

İndi tamaşaçılar arasında belə bir yarıciddi, yarızarafat fikir yayılıb ki, televiziyalar reklamların arasında hərdən veriliş də verirlər. Yeri gəlmişkən, söhbət özəl kanallardan gedir, AzTv və Mədəniyyət Tv dövlət kanalları olduğundan belə biabırçılığa qol qoymurlar.

TV-lərdə reklamın qiyməti astronomikdir. Şəxsən mən hər hansı bir şirkətin reklam meneceri olsaydım, bu qiymətə o səviyyədə reklam verməzdim. Çünki bizim televiziyalarda verilən reklamların azı 90 faizi əslində antireklamdır. Reklamın saniyəsinə görə tələb olunan qiymət materialın keyfiyyətinə və təqdimatın effektivliyinə adekvat deyil.

Reklamda yer adları, sözlər, cümlə quruluşlarının səhv deyilməsi və küçə jarqonlarından istifadə etməklə dilin qanunlarını pozurlar. Reklamlar o qədər qeyri-peşəkar hazırlanır ki, reklam mətni, orada məhsulun hansı keyfiyyətinə görə reklam olunması, insanların onu nəyə görə seçməli olduğu aydın olmur. Sanki bu çarx tamaşaçını təqdim olunan məhsuldan ikrah etdirməyə çalışır, reklamda deyilən həddən artıq şişirdilmiş bayağı sözlərin bu məhsula heç bir aidiyyatı olmamasını göstərir. Ən təhlükəli reklamlar gənc və yeniyetmələrə ünvanlaşmış reklam çarxlarıdır. Reklamların çoxu azyaşlı taamaşaçılar üçün dəhşətli antipsixoterapiyadır. Psixologiyası hələ formalaşmamış uşaq və yeniyetmələrə yalnız əyləncə, laqeydlik, eqozim, narsizm təbliğ olunur.

Digər tərəfdən, reklam texnologiyaları ilə milli tamaşaçı kütləsinin psixoloji səviyyəsi indeksasiya edilmir. Əksər reklamlar açıq şəkildə tamaşaçını aldatmağa yönəlib və o qədər savadsızcasına, qeyri-səmimi hazırlanır ki, bunu ən savadsız tamaşaçı, uşaq belə hiss edir.

Bizim reklam hazırlayanlar elə bilirlər ki, reklam çarxına çox səs-küylü, haray-həşirli, gözüyoran videoeffektlər, parlaq və tezdəyişən kadrlar əlavə ediləndə effektli olur. Amma psixoloqlar deyir ki, bu, tam tərsinədir. Heç kim sürətli kadr dəyişmələri, yalançı səs-küyü, pafoslu və kollektiv deyilmiş ifadələri, mürəkkəb videoeffektləri qavramır və xoşlamır.

Məşhur bir müğənnini reklama çəkmək və ona süni, pafoslu sözlər dedirtmək hələ peşəkar reklam demək deyil. Əksinə, bu əks-effekt verir. Hər kəsin öz zövqü var, öz tələbatı var, kimin nəyinə lazımdır kim hansı məhsuldan istifadə edir? Məgər bu kompyuter müğənnisi o qədər savadlı dahidir ki, hər şeyi doğru seçsin?

Normal reklam çarxı sadə olmalı, şişirtmədən məlumat verməli, iddianı sübut edən videofakt göstərilməli, kadrlar 2 saniyədən tez dəyişməməli, səs rəvan, məlahətli olmalı, mətn sürətlə oxunmamalı, 1 dəqiqədən çox olmamalıdır. Tamaşaçı görməlidir ki, burada onu avam yerinə qoyub aldatmağa çalışmırlar, əksinə, məhsul haqda məlumat verirlər.

Yoxsa bunlar elə vəziyyət yaradıblar ki, artıq əksəriyyət reklam olunan malı almır, düşünürlər ki, demək bu mal yaxşı deyil, bizi aldadıb satmaq istəyirlər.

Təəssüf ki, bizim kanallarda prinsiplər belə deyil. Ona görə də onları televiziya yox, reklam kanalı adlandırmaq lazımdır. Əsl televiziyalar artıq internetdə formalaşmağa başlayıb. Onların da problemləri var, amma bu problemlərin getdikcə aradan qalxacağına ümid var. Müşahidələr göstərir ki, artıq insanların çoxu internet tv-lərinə və ya sosial şəbəkə kanallarında videolara baxır. Bu ənənəvi TV-lər üçün SOS siqnaldır. Televiziyalar isə bu həyəcan siqnalını eşitmirlər.

# ATƏT ənənəvi riyakarlığından əl çəkmədi

## ATƏT-in saxta faktlar əsasında azad və demokratik şəraitdə baş tutan parlament seçkiləri ilə bağlı yaydığı sənəd heç bir halda ciddi qəbul edilə bilməz



***Sentyabrın 1-də Azərbaycanın bütün suveren ərazisində azad və demokratik şəkildə parlamentə növbədənkənar seçkilər keçirildi. Bu seçkilərlə ölkəmiz bir daha demokratik prinsiplərə, azad seçki ənənəsinə sadiq olduğunu nümayiş etdirdi. 30 ildən sonra ilk dəfə ölkəmizin hər yerində, o cümlədən işğaldan azad edilən ərazilərdə seçkilərin keçilməsi insanların sevincinə sevinc qatmışdı. Bu baxımdan da ölkəmizdə seçki günü bir növ bayram əhval-ruhiyyəsi yaşanırdı.***

Hər kəs seçki məntəqələrinə tələsir və səsvermədə iştirak etməklə zəfər seçkisinə öz töhfəsini verməyə çalışırdı. Deputatlığa namizədlərin sayının kifayət qədər çox olması seçicilərə seçim etməkdə çətinlik yaratsa da, hər halda yanlışlığa yol verməkdə mümkün deyildi. Çünki namizədlərin bir-birinə hörmət mühitində keçilən debatlarla, təqdim olunan seçki platformaları ilə seçicilər kimin daha üstün olduğunu və hansı namizədin onların parlamentdə təmsilçisi ola biləcəyini müəyyənləşdirməyə imkan verdi. Ona görə də, xırda çatışmazlıqları, namizədlər arasında cüzi narazılıqları nəzərə almasaq, böyük anlamda parlament seçkiləri möhtəşəmliyi ilə yadda qaldı. Seçkilərlə bağlı əhali arasında maarifləndirici işlərin aparılması da seçkilərin azad və yüksək seçici fəallığı ilə keçirilməsinə təkan oldu. Mərkəzi Seçki Komissiyası və müvafiq dövlət qurumları mütəmadi olaraq əhalinin və seçkiləri müşahidə edəcək şəxslər üçün treninqlər təşkil edir, maarifləndirici bukletlər, kitabçalar hazırlayaraq paylayırdı. Seçki Məcəlləsinin beynəlxalq prinsiplərə uyğun hazırlanaraq qəbul edilməsi də seçkilərin seçkilərin azad və demokratik şəkildə baş tutmasına imkanlar yaratdı. Seçki Məcəlləsinə əlavə olunan sənədlər, o cümlədən "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə xüsusi seçki hesablarının açılması qaydaları haqqında", "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında", "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədə, onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi Qaydaları", "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər zamanı təsdiq edilmiş deputatlığa namizədin müdafiəsi üçün seçici imzalarının toplanması və dairə seçki komissiyasına təqdim edilməsi qaydaları haqqında" təlimatlar və digər mükəmməl sənədlər şəffaf və demokratik seçkilərin keçilməsinə yardımçı oldu.

### Əksər beynəlxalq müşahidəçilər ATƏT-i ifşa etdilər

Parlament seçkilərinin yüksək seçici fəallığı ilə azad və demokratik şəraitdə keçirilməsinə baxmayaraq yenə də qərəzli mövqe sərgiləyənlər, təxribatçı fikirlər səsləndirənlər, sosial şəbəkələrin nəzarətsiz poliqon olmasından istifadə edib şər və böhtan xarakterli statuslar paylaşanlar, videolar yayımlayanlar oldu. Hansı ki, bu məxluqlar bəziləri sapı özümüzdən olan baltalar olsalar da, boyunlarındakı ip xarici maraqlı dairələrin əlində olub. Müşahidəçi adı ilə ölkəmizə gəlib erməni əmisi uşaqlarının sifarişlərini yerinə yetirənlər də oldu. Onların arasında ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun müşahidə missiyasının üzvləri daha çox qərəzli mövqe sərgiləyirdilər. Hələ bir qədər əvvəl onların haqqında yazmışdım ki, bu məxluqlardan seçkilərlə bağlı ədaləti, reallığı əks etdirən açıqlamalar və ya bəyanatlar gözləməyə dəyməz. Çünki bu şəxslər müstəqil deyillər. Digər tərəfdən hər zaman bu məxluqlar Azərbaycana qarşı qərəzli mövqeləri ilə seçilib və tanınıblar. Deyilənlər və yazılanlar özünü təsdiqlədi. Seçkilərin başa çatmasına hələ bir neçə saat qalmış ATƏT-in şablon hesabatı artıq hazır olduğu üzə çıxdı. Qərb demokratiyası bu prosesdə yenə də öz "ənənə"sinə sadiq qaldı. Belə bir təşkilatın azad və demokratik şəraitdə keçirilən parlament seçkilərinə kölgə salmağa cəhd etməsi bu təşkilatın Azərbaycanın möhtəşəm uğurlarından ciddi narahat olduqlarını göstərir.

### ATƏT yenə də qərəzli təşkilat adını qoruyub saxladı

ATƏT-in şablon hesabatında irəli sürülən iddialar absurd, heç bir ciddi əsası olmayan kağız parçasıdır. Sentyabrın 1-i saat 16:00-da aşkarlanan ATƏT-in qərəzli sənədində deyilir ki, guya seçkinin hüquqi bazası demokratik seçkilər üçün əlverişli deyil, Konstitusiya və digər qanunların icazə verdiyi sərbəst toplaşmaq və ifadə azadlığı məhdudlaşdırılıb, beynəlxalq standartlara və ATƏT-in öhdəliklərinə uyğun gəlmir. Sənədin cızma-qara hissəsində qeyd olunur ki, MSK daxil olan şikayətlərin əksəriyyətinə mahiyyəti üzrə baxıb, lakin dəvət olunmuş tərəflərin arqumentləri heç vaxt nəzərə alınmayıb. MSK əvvəlcədən hazırlanmış qərarlar qəbul edərək şikayətçiləri qanunla, ATƏT-in öhdəliklərindən və beynəlxalq təcrübədə nəzərdə tutulmuş prosedur təminatlarından məhrum edib. Sənəddə o da vurğulanır ki, siyasi aktorların, hüquq müdafiəçilərinin, vətəndaş cəmiyyəti fəallarının, akademiklərin və jurnalistlərin həbs və həbsləri seçkiqabağı dövrdə də davam edib.

Bir sözlə, ənənəvi ittihamlar, iddialar və lüzumsuz yanaşmalar. Lakin şübhə edilmir ki, ATƏT-in əksər nümayəndələri bu cızma-qara sənəddən xəbərləri yoxdur. Sadəcə, kursa uyub, tələbləri yerinə yetirmək məcburiyyətindədir. Çünki Avropanın qaranlıq dairələrinin Azərbaycana qarşı olan münasibəti müşahidəçilər sırasında yer alan bədbəxtlərə də məlumdur. Cəsarət etməyə, söz deməyə, etiraz etməyə onların haqları yoxdur. Əks halda şəbəkə mafiyasının qəzəbinə tuş gəlib, zibil qutusuna atıla bilərlər. Zəif məxluqların özləri də anlayırlar ki, Avropanın digər ölkəsinin müstəqil müşahidəçiləri parlament seçkilərinin azad və demokratik şəraitdə keçildiyini bəyan ediblər. ABŞ-ın "Oracle Advisory Group" təşkilatı keçirilən parlament seçkilərini yüksək qiymətləndirib. Ölkəmizdə 7 mindən çox seçici arasında "exit-poll" keçirən İtaliyanın "SWG SPA" şirkəti, MDB PA, TDT kimi mötəbər təşkilatlar seçki prosesindən razılıqlarını bəyan etdilər. Məmnunluğunu ifadə etdilər. Dünyanın nüfuzlu KİV-ləri sentyabrın 1-də keçilən parlament seçkilərinə xüsusi diqqət ayıraraq seçkilərin Azərbaycan xalqının iradəsi əsasında baş tutduğunu qeyd etdilər. Türkiyənin Anadolu Agentliyi, TRT media qurumu, "Milliyet", "Cumhuriyyet", "Son dakika", "Haberler.com", "Ensonhaber", "Son dakika", "Haber Global" kimi bir çox media qurumu ölkəmizdəki parlament seçkiləri ilə bağlı yazılı və video xəbərlər hazırlayıb. Türkiyə Ali Seçki Qurumunun (YSK) sədri Ahmet Yenerin qardaş ölkə mediasına verdiyi müsahibəsi yer alıb. Bildirilib ki, YSK sədri müsahibəsində sentyabrın 1-nin Azərbaycan demokratiyası və tarixi üçün mühüm bir gün olduğunu vurğulayaraq deyib: "Qırx dörd gün davam edən İkinci Qarabağ müharibəsində qazanılan Zəfərdən sonra ölkədə ilk dəfə parlament seçkiləri bütün torpaqlarda keçirilir.




Seçkilərin Azərbaycan xalqı və Türk dünyası üçün xeyirli olmasını arzulayıram. Seçkilərin nizamlı və şəffaf şəraitdə keçdiyini, azərbaycanlı qardaşlarımızın seçkiyə böyük əhəmiyyət verdiyini görürük. Bunu görmək bizim üçün sevindiricidir. Seçici fəallığı çox yüksəkdir".

Şuşadakı seçki məntəqəsində müşahidəçi qismində iştirak edən Britaniya Lordlar Palatasının üzvü Qurban Hosseyn nəşrə müsahibəsində 1 sentyabr parlament seçkilərinin nöqsansız keçdiyini deyib. Rusiyalı müşahidəçilərdən biri, Rusiya Federasiya Şurasının Elm, Təhsil və Mədəniyyət Komitəsi sədrinin birinci müavini İlyas Umaxanov "Vestnik Kavkaza" agentliyinə müsahibəsində bu seçkilərin Azərbaycan üçün əhəmiyyətindən danışaraq səsvermənin ölkəmizin bütün suveren ərazisində keçirildiyini qeyd edib. O, azərbaycanlıların öz doğma torpaqlarına qayıtdıqlarını vurğulayaraq deyib: "Bu baxımdan biz bu gün Ümummilli Lider Heydər Əliyevin oğlu, Prezident İlham Əliyevə vəsiyyətinin yerinə yetirildiyinin şahidiyik". O, Rusiyanın Azərbaycanın siyasətini tam dəstəklədiyini, Rusiya Prezidenti Vladimir Putinin Bakıya səfərinin iki ölkə arasında mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə töhfə verdiyini vurğulayıb. Agentliyin digər həmsöhbəti, MDB PA-nın baş katibi Dmitri Kobitski parlament seçkilərinin monitorinqinin ilkin nəticələri ilə bağlı fikirlərini bölüşərək qeyd edib ki, müşahidəçilərdən heç biri səsvermənin təşkilinə dair hər hansı nöqsan qeydə almayıb. "Mir" Dövlətlərarası Teleşirkəti, "Belarus seqodnya" nəşri,TASS agentliyi, "Rossiyskaya qazeta" nəşri, "İnterfaks" agentliyi və digər nüfuzlu beynəlxlq nəşrlər seçkilərin yüksək seçici fəllığı ilə keçirildiyini qeyd ediblər. "Altı qrupdan ibarət nümayəndə heyətimiz Bakıda yerləşən müvafiq məntəqələrdə keçirilmiş seçki prosesində müşahidəçi qismində iştirak edib. Keçirilən müşahidə ölkə qanunvericiliyinə, habelə seçkilərin təşkili və keçirilməsinə dair beynəlxalq standartlara əsaslanan qanunlara və qabaqcıl təcrübəyə uyğun olaraq aparılıb". Bunu Qoşulmama Hərəkatı Gənclər təşkilatının müşahidə missiyasının üzvü Jakop Eyeru növbədənkənar parlament seçkilərinin ilkin nəticələri ilə bağlı keçirilən mətbuat konfransında deyib. O bildirib ki, səsvermə bülletenlərinin hesablanması və nəticələrinin elan edilməsi Seçki Məcəlləsində nəzərdə tutulmuş qaydalara və standartlarına uyğun olaraq aparılıb: "Seçki məntəqələrində seçki hüququna malik olan vətəndaşların inklüziv iştirakını və yüksək seçici fəallığını müşahidə etdik. Müşahidəçilər təsdiqləyib ki, bütün təyin edilmiş seçki məntəqələrində səsvermə zamanı şəffaflıq və legitimlik meyarlarına cavab verən azad və ədalətli seçkilər baş tutub. Müşahidəçilər həm milli, həm də beynəlxalq nümayəndə heyətinə obyektiv müşahidələrin aparılması üçün lazımı inzibati dəstəyin göstərildiyini qeyd ediblər".

### ATƏT-in saxta faktlar əsasında yaydığı sənəd heç bir halda ciddi qəbul edilə bilməz

Seçkilərin azad və demokratik şəkildə baş tutduğunu bütün nüfuzlu media qurumları və müşahidəçilər də təsdiqləyirlər. Yalnız ATƏT ənənəvi riyakarlığından əl çəkmədi. Yenə də həmişəki qərəzli yanaşmasını nümayiş etdirməklə Azərbaycana qarşı sərsəm iddialarla çıxış etdi. Lakin saxta faktlar əsasında yayılan sənəd heç bir halda ciddi qəbul edilə bilməz. Yayılan sənəd, sadəcə, cızma-qaradan ibarət kağız parçasıdır. Azərbaycan xalqı seçki keçirmək və bu seçkinin nümunəvi bir seçki olduğunu bütün dünyaya nümayiş etdirmək gücünə və imkanına malikdir. Necə ki, bunu 1993-cü ildən bu günə qədər keçirdiyi bütün seçkilərdə nümayiş etdirib. Ona görə xeyirli işimizə heç kim, o cümlədən Avropanın qaranlıq dairələrinin əlində alət olan ATƏT müşahidəçiləri ləkələyə bilməzlər.

***İLHAM ƏLİYEV***

# İRƏVANIN YALANI

***Ermənistan regionda sülhün əldə olunmaması üçün bütün imkanlarını sınayır. Buna xarici havadarları da yardımçılıq edir. Vaxt qazanır ki, silahlana, məğlub psixologiyalı ordusunu yeniləri ilə əvəzləyə bilsin. Amma insan resursu ermənilərin arzularını gerçəkləşdirmək qədərində deyil. Ona görə də xaricdəki havadarlarından əsgər almağından da qalmır. Bu yaxınlarda ABŞ və Fransa ordularında xidmət edən erməni əsilli hərbçilərin Ermənistana gətirilməsi barədə xəbər də bunun davamıdır.***




İrəvan "öz gözündə tiri görmür", Azərbaycanı silahlanmaqda ittiham edir. Azərbaycan işğalın nə olduğunu, işğalçının kim olduğunu yaxşı bilir. Həm də Ermənistan tərəfindən işğala məruz qaldığını unutmur, ona görə də ordusunu daim hazır vəziyyətdə saxlayır. Ermənistan isə ədalətsiz müharibədə, torpaqlarımızın işğalında suçlu tərəfdir, beynəlxalq ənənəyə, məğlub-qalib tandemindəki münasibətlərə uyğun olaraq yenidən silahlanması yasaqdır.

...Paşinyan mətbuat konfransı keçirdi və bütün çıxışı ərzində bir neçə etirafı, həm də dolayı etirafı çıxmaq şərtilə, bütün çıxışını başqalarının ittihamı üzərində qurdu. Guya Azərbaycan İtaliyadan silah-sursat tədarük edir. Düzdür, Azərbaycan təkcə İtaliyadan yox, bir sıra ölkələrdən nəqliyyat vasitələri və silah alır, amma həmin texnika və sursatlar Ermənistan üçün deyil. Bakı zatən İrəvandan güclüdür, bu gün istəsə erməni paytaxtına üçrəngli bayrağını sanca bilər. Amma Azərbaycanın niyyəti bu deyil, dünya birliyi tərəfindən tanınan sərhədlərə hörmətlə yanaşır, Ermənistan da bura aiddir. Deməli İtaliyadan silah almağımız Ermənistanın baş nazirinin növbəti uydurmasıdır, yalandır. Ermənistan isə Fransadan, ABŞ-dan, Hindistandan və digər ölkələrdən öldürücü silahlar alır, özü də buna ehtiyacı olmadığı halda.

Paşinyan tərəfindən səslənən iddialara Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə də kəskin reaksiya verib. XİN rəsmisi N. Paşinyanın Azərbaycanın hərbi büdcəsi ilə bağlı dediklərinin də beynəlxalq təşkilatların məlumatları ilə ziddiyyət təşkil etdiyini vurğulayıb: "Ermənistan tərəfinin guya Azərbaycanın hərbi büdcəsinin ölkənin ümumi daxili məhsulunun (ÜDM) 14-15%-ni təşkil etdiyini və bunun Ermənistandan qat-qat çox olduğunu bildirməsi aidiyyəti beynəlxalq təşkilatların hərbi büdcə ilə bağlı yaydıqları məlumatlara tamamilə ziddir və bu dəfələrlə şişirdilmiş rəqəmdir. Bununla yanaşı, Ermənistanın hərbi xərclərini ötən illə müqayisədə 46% artırması Ermənistanın militarizasiyasını sübut edən növbəti göstəricidir".

Zəngəzur məsələsinə gəldikdə, Ermənistan 30 il Naxçıvanı blokada vəziyyətində saxlayıb. Paşinyan hakimiyyətə gəldikdən sonra da blokada davam edib. İndi Ermənistan öz maraqları çərçivəsində blokadanın açılmasından danışır ki, bu da riyakarlıqdan başqa bir şey deyil. Əvvəlcə Ermənistan xoş niyyət göstərməli, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan MR arasında kommunikasiyanın açılmasına imkan yaratmalı, sonra isə digər nəqliyyat məsələlərinə baxıla bilər. Azərbaycan öz vətəndaşlarını Ermənistanın ümidinə buraxa bilməz, çünki Ermənistanın bu halda necə davrandığı hamıya məlumdur.

## Ermənistan İsrailə qarşı, niyə?

"Ermənistanın İsraillə əlaqələri onun İranla əlaqələrinin inkişafı və antisemitizmi israrlı şəkildə inkar etməsi səbəbindən pisləşir. İrəvan regionda təsirini artıran Tehranın marionetkasına çevrilib. İranla əlaqələrin inkişafı və antisemitizmin israrla inkar edilməsi Ermənistanın İsraillə münasibətlərinin pisləşməsinə gətirib çıxarır. Dünyada ermənilərlə yəhudilər arasında nifaq salmağa çalışan qüvvələr var. Onlar Ermənistanda guya antisemitizm olduğu barədə yalan xəbərlər yayırlar. İsrailin Azərbaycana necə silah verdiyini izah etməklə erməniləri dəhşətli təxribata çəkməyə çalışırlar". Bunu Ermənistan xarici işlər nazirinin keçmiş müavini Qriqor Ovannisyanın sözləridir. Ovannisyan "Ermənistan və İran: yalan iddialar" ("Jerusalem Post", 12 avqust) başlıqlı məqaləsində İran-Ermənistan münasibətlərinin möhkəmləndirilməsi, xüsusən də silah tədarükü müqavilələri haqqında yazdığım üçün belə qüvvələrin nümayəndəsi olduğuma eyham vurur. İrəvan bunu inkar edir.

Ermənistan çox şeyi inkar edir.






Başlayaq "Ermənistanda guya antisemitizmlə bağlı saxta xəbərlər"dən. Səlahiyyətlilər Mordechai Navi sinaqoquna çoxsaylı hücum faktlarını inkar edir, bəzi "əcnəbilərin" gəlişi, mühafizə olunan sinaqoqu yandırmağa cəhd etməsi və sonra ölkəni tərk etməsi barədə danışılır. Hakimiyyət təkcə hücumlara görə məsuliyyəti öz üzərinə götürməyib, həm də yəhudiləri daha çox hücumla hədələyən Ermənistanın Azadlığı Naminə Erməni Gizli Ordusunun (ASALA) mövcudluğunu inkar edir.

Bəs bu ilin əvvəlində İrəvanın mərkəzində keçirilən neonasist parade nə deyək? Ermənistan hakimiyyəti əvvəlcə hər şeyi təkzib etdi, sonra yenə bütün günahı "əcnəbilərin" üzərinə ataraq onların açıq şəkildə qayğısına qaldı. Bəs niyə erməni neonasist lideri Hayk Nazaryan İrəvan küçələrində sərbəst gəzir, çoxsaylı tərəfdarları ilə şəkil çəkdirir, sonra isə həyasız antisemitizm çağırışları ilə müşayiət olunan fotoları sosial şəbəkələrdə yerləşdirir? Neonasistlər niyə İrəvanın mərkəzinə yürüş etdilər? Onlar faşist əməkdaşı Qaregin Njdenin mərkəzi meydanda ucaldılmış abidəsi önünə getdilər.

Amma gəlin Ermənistanın dostu İrana qayıdaq. İrəvanla Tehran arasında strateji əməkdaşlığın uzun tarixi var. 2008-ci ilin sonunda amerikalı diplomatlar belə qənaətə gəliblər ki, Ermənistan İrana idarə olunmayan raketlər və pulemyotlar verib, onlardan İraqda Amerika hərbçilərinin öldürülməsi üçün istifadə olunub. Bu, 2016-cı ildə İrəvanla Tehran arasında hərbi əməkdaşlığın möhkəmlənməsindən xeyli əvvəl idi.

İranla kəşfiyyat sahəsində əməkdaşlıq, hərbi əlaqələrin gücləndirilməsi, təlim və Ermənistan torpaqlarında bazaların açılması haqqında son razılaşmaya gəlincə, bunu inkar etmək sadəcə olaraq mümkün deyil. Bu sövdələşmənin ilk xəbəri çıxmazdan bir neçə gün əvvəl baş nazir Nikol Paşinyan Tehrana səfər edib və burada İranın seçilmiş prezidentinin andiçmə mərasimində iştirak edib. Bu mərasimdə yalnız iki dövlət başçısı iştirak edirdi. Bütün digər ölkələr aşağı rütbəli məmurlar göndərirdilər.

### Paşinyan və Xamneyi

Paşinyan ali lider Əli Xamneyi ilə də görüşüb və ali lider deyib:



"Biz Ermənistanla münasibətləri gücləndirməkdə qərarlıyıq və ölkələrimiz arasında qarşılıqlı maraqlara əsaslanan və digər dövlətlərin siyasətindən asılı olmayaraq əməkdaşlığı sarsılmaz güclə davam edəcək". Paşinyanın HƏMAS lideri İsmayıl Haniyə ilə görüşməli olduğu və o, mövcud olmayan "Fələstin dövlətini" tanıdığına görə ona şəxsən təşəkkür etmək istədiyi barədə məlumatlar ortaya çıxıb. Lakin Haniyə öldürüldüyü üçün bunun əlavə sübutu yoxdur.

İrəvan da bunu inkar edə bilər. Amma Yaxın Şərqin tarixini bilən hər kəs xatırlayır ki, ermənilər həmişə Fələstin terror təşkilatlarını dəstəkləyiblər. Ermənistanın milli qəhrəmanlarından biri Monte Melkonyan israillilərlə döyüşdüyü ilə öyünürdü. Bu barədə Markar Melkonyanın "Qardaşımın yolu: Amerikanın Ermənistana taleyüklü səyahəti" kitabında oxuya bilərsiniz.

Bəli, bütün varlığı ilə Ermənistan İranın oyuncağına çevrilib. Onun havasına oynayır, həm də iranın düşmən adlandırdığı dövlət və xalqlara qarşı münasibəti də rəsmi Tehranınkından heç fərqlənmir. Ermənistan həm də İranın düşməni olan Qərblə müttəfiqdir, onun qoltuğuna sığınıb. Brüsselin, Vaşinqtonun tapşırıqlarını gözüyumulu yerinə yetirir. Bəs Qərb günlərin bir günündə İrəvanı Tehranın üstünə qısqırtsa, onda necə

**V.VƏLİYEV**

RAKURS





# Bıçaqlayan gözətçi, yaralanan direktor, ölən təhsil

***Astara şəhər 6 nömrəli məktəbin gözətçisi məktəbin direktoru Ülviyyə Bayramovanı bıçaqlayıb. Müxtəlif dərəcəli xəsarətlər alan direktor xəstəxanaya yerləşdirilib. Onun həyatına təhlükə olmadığı, bıçağın daxili orqanları ciddi zədələmədiyi bildirilib. Qeyd edilib ki, 40 yaşlı Ü.Bayramovanı bıçaqlayan gözətçi məktəbin kargüzarı Validə Məmmədovanın həyat yoldaşıdır.***



Bir müddət əvvəl V.Məmmədova sosial mediada və KİV-də Ülviyyə Bayramovanı rüşvət və korrupsiyada ittiham etmişdi. Bundan sonra prokurorluq tərəfindən məktəbdə araşdırma aparılıb və iddialar təsdiqini tapmayıb. Ü.Bayramova isə məktəbin kargüzarını xüsusi ittiham qaydasında məhkəməyə verib. Məhkəmənin hökmü ilə V.Məmmədova böhtan əməlində təqsirli bilinərək cəzalandırılıb. Cinayət əməlini törətməkdə şübhəli bilinən 1964-cü il təvəllüdlü Halik Nəcəfov polis əməkdaşları tərəfindən saxlanılıb. Faktla bağlı cinayət işi başlanılıb, araşdırmalar aparılır.

Hadisə ilə bağlı Astara rayonun “Gənc Alimlər” təşkilatından bizim.media-ya verilən məlumatda qətlin təfərrüatları barədə maraqlı iddialar səsləndirilib. İddialara görə, direktor, bir neçə ay öncə, öz katibəsinin montaj edilmiş görüntülərini yayıb: “Material, saxta olsa belə, qadının nüfuzunun sarsılmasına səbəb olub və bıçaqlanma faktına gətirib çıxaran əsas amil də, bu, olub. Məhz bu porno şantaj hadisəsindən sonra, katibə Validə Məmmədova ağır psixoloji-sarsıntı keçirib, səhhəti pozulub və 16 aprel 2024-cü ildə Ülviyyə Bayramovanın tələbini qəbul edərək, işdən çıxmağa məcbur qalıb”.

“Gənc Alimlər” təşkilatının iddialarına görə, tərəflər arasında mübahisə məhkəməyə qədər uzanıb. Avqustun 27-də isə Astara Rayon Məhkəməsi iddiaların əsassız olduğu qənaətinə gəlib və Ülviyyə Bayramovanın xeyrinə qərar çıxarıb. Nəticədə, katibənin həyat yoldaşı, məktəbin gözətçisi işləyən Nəcəfov Halik Əli oğlu 2024-cü il sentyabrın 1-də məktəbdə olarkən, direktor Ülviyyə Bayramovaya münaqişə zəminində bıçaqla xəsarət yetirib. Hadisə vaxtı məktəbdə seçki komissiyası fəaliyyət göstərirdi.

Əksəriyyət məktəbdə baş verən bu kimi zorakılıq hallarını əks etdirən videoları ürək ağrısı ilə seyr edir. Kimi günahlandıraq? Bu zorakılıq müəllim-şagird arasında da olur, müəllim-direktor arasında da, şagirdlə şagird arasında da. Axır illər trendə məktəbin gözətçiləri, texniki işçiləri də qoşulub. Övladına tərbiyə verməyən valideyn, tərbiyələnmək istəməyən uşaq, amalı, məqsədi təhsil yox rüşvət olan direktorlar, məktəbin invertarlarını satıb yeyən təsərrüfat müdirləri, məktəbdə biznes quran texniki işçilər, dərs cədvəli satan müavinlər, tərbiyəsiz uşaq əlində naçar qalan müəllimlər, döyülən yaxud döyən şagirdlər, bütün bunlara gözünü yumub, qulağını tıxayan nazirlik – sizcə, hansı daha çox günahkardır?





Məktəblərdə ən böyük boşluq nədir, bilirsinizmi? Müəllim avtoritetinin yoxa çıxması. Müəllim kimi ali bir ünvanı sıxışdıra-sıxışdıra yazıq görkəmə saldılar. Müəllimi elə yazıqlaşdırdılar ki, uşağa söz deməyə risk etmir. Daha müəllim nə təhsil verir, nə təlim verir, nə də tərbiyə. İşi-gücü səhərdən-axşamacan lüzumsuz kağız-kuğuz işlərini bitirmək, jurnal yazmaq, summativ yoxlamaqdır. Başını qaldırıb sinifə baxa bilmir ki, nə baş verdiyini görsün. Onun bu halı ailəsindən tərbiyə, nəzarət görməyən şagirdlər üçün göydəndüşmə fürsətdir. Bilirəm, çox kobud olacaq, amma yazmağa məcburam. Bu vəziyyətlərdə qız şagirdlərin ayağına, sinəsinə, belinə toxunmağa cəhd halları da baş alıb gedir.

Cinsi zorakılıqlar, təcavüz, pedofiliya, narkomaniya faktları da məktəblərimizdə yetərincədir. Şagirdinə cinsi orqanını çəkib göndərən direktorlar da gördük, şagirdinin bədəninə toxunmağa cəhd edən müəllimlər də. Bütün bu hallar aşkarlandıqca yalnız bir açıqlama verilir: “Tədbir görülür”. Bəs hanı o tədbirlərin nəticəsi? Niyə düzəlmir məktəblərdəki vəziyyət? Düzəlirsə nədir bu gözətçi kriminalı? Direktorla gözətçinin nə problemi ola bilər ki canına qəsd etsin?

Məktəblərdə özbaşınalıq baş alıb gedir. Şagirdlər məktəbə təsbehlə, bıçaqla gəlir. Kəpənək deyilən bıçaq növü ilə qısnama, hədələmə hərəkətləri etməyə meylli olan nəsil yetişib. Onlar bıçaqla lovğalıq edirlər, qısnama zamanı hədə-qorxu gəlmək üçün istifadə edirlər. Məktəblilərin üzərindən dəfələrlə beşbarmaq deyilən təhlükəli alət aşkarlanıb. Şagirdlər müəllimin üzünə üfürür siqaretin tüstüsünü. Bütün səlahiyyətləri əlindən alınmış müəllim nə edəcək bu vəziyyətdə?

Uşaqlar saytlardan zorakılıq təbliğ edən oyunların simvolu olan silahları sifariş edirlər. Daha sonra sifariş edilən silahları məktəbə gətirib sinif yoldaşlarına paylayırlar. Məktəblər və məktəb rəhbərliyi zorakılıq nümayiş etdirən uşaqları asanlıqla müəyyən edə bilir. Bunun üçün sinif rəhbəri, məktəb psixoloqu, məktəblinin dostu var. Xüsusilə də məktəbdə çalışan psixoloqlara çox mühüm vəzifə düşür. Amma özü də kriminal vəziyyətlərə düşən, ya bıçaqlayan, ya bıçaqlanan direktorların rəhbərliyi altında nə qədər yaxşı vəziyyətdən söz açmaq olar ki? Məktəblərdə təhsildən başqa hər şey var - bulinq, zorakılıq, qısnama, bıçaqlama, öldürmə. Məktəblərdə yalnız dərs yoxdur, elm yoxdur, təhsil yoxdur. Təhsil can çəkişir, nazirlik susub. Məktəblər kriminal zonaya çevrilib, nazirlik susur. Biz də susaq?!

***Lalə Mehralı***

# “Uşaqlar bu amillərə görə tətil günlərində yaxşı istirahət etməlidirlər”



PSİXOLOQ İZAH ETDİ

“İlk növbədə bildirmək lazımdır ki, tətil və istirahət günlərindən sonra uşaqlar məktəbə qayıtdıqda daha gümrah və enerjili olmaları üçün tətil günlərində yaxşı istirahət etməlidirlər. Amma bununla yanaşı öyrənməkdən də geri qalmamalıdırlar. Belə vaxta valideynlərin onlar üçün əyləncəli, eyni zamanda öyrədici olacaq təlimlərə yönəltmələri məsləhətlidir”. Bu sözləri SİA-ya açıqlamasında Amerika Beynəlxalq Nevrorequlyasiya və tədqiqatlar Dərnəyinin rəsmi Azərbaycan təmsilçisi, Psixologiya Elmi-Tədqiqat İnstitutunun elmi işçisi, Uzman-Klinik psixoloq Narınc Rüstəmova deyib. O bildirib ki, uşaqlar bir müddətlik tətillərdən sonra yenidən bağçaya, məktəbə qayıtdıqda onlarda adaptasiya prosesi müəyyən mənada çətin olur: “Bundan əlavə bu bəzi azyaşlı uşaqlarda, xüsusən birinci sinfə və məktəbəqədər başlayan uşaqlar üçün yeni bir dövr hesab edildiyi üçün adaptasiya çətinliyi və məktəb, sinif, düşdüyü yeni mühitə və s. qarşı müəyyən qorxular özünü göstərə bilir. Təbiidir ki, bu mərhələni hər bir uşaq fərqli formada keçirir. Ana-uşaq simbiozu olan, bağçaya ara-sıra gedən, ərköyün böyüdülən və s. tipli uşaqlarda bu prosses digər uşaqlara nisbətən bir az çətin ola bilir. Bu barədə tez-tez bu tipli suallar ünvanlanır: “Burada valideynlər nəyə diqqət etməli, uşaqlarının çətinlik çəkməməsi üçün nə etməlidirlər”

Qeyd etdik ki, uşaqlarda adaptasiya çətinliyi ilə yanaşı, bağça qorxusu və bərabərində məktəb qorxusuna da təsadüf edilir. Belə uşaqların istər məktəbdə, istərsə də bağçada valideynləri və ya nənə-babaları ağlamamaları üçün müəyyən müddət yanlarında oturduğunun da şahidi oluruq. Hətta bu fobiyaların ağır forması da görə bilirik, məsələn: uşaq artıq 3-cü sinifdə oxuyur hələ də dərsdə valideyni onun yanında oturur.

Uşaqlarda bu probelmi koressiya etmək üçün birmənalı olaraq 3-cü şəxsin, yəni psixoloqun müdaxiləsi lazımdır. Zamanında korreksiya edilmədikdə uşaqlarda yuxu pozulmaları, temperaturun qalxaması, qusma, baş ağrısı və s. kimi psixosomatik əlamətlər də baş verə bilər. Psixoloq terapiyalar sırasında uşaqla özgüvən çalışmaları etməyə və özgüvənini müəyyən səviyyəyə qaldırmağa başlayır. Çünki, özgüvəni aşağı olan uşaqlarda da bu tip fobiyaların ağır formasına təsadüf edilir. İrəliləyən zamanlarda isə müxtəlif tapşırıqlar və üsullarla bu problem korreksiya edilə bilir”.



*Səbinə Hüseynli*

# İran mediası: “Zəngəzur dəhlizi Rusiya və Ermənistan arasında yeni gərginlik mənbəyidir”

***Son vaxtlar İran KİV-ləri Zəngəzur dəhlizinə aid mövzulara daha çox toxunmağa başlayıb və bu, ətrafda müxtəlif versiyalarla çıxış edir. Bu dəfə "Mashregh News" saytının analitik şərhində iddia olunur ki, Rusiya ilə Ermənistan arasında münasibətlər get-gedə pisləşməkdə davam edir.***






Ermənistan Rusiyadan qopmağa çalışır, Moskva isə İrəvanı Qərbin ətəyinə buraxmamaqda çox qərarlıdır.

Adıçəkilən sayt iddia edib ki, guya Rusiyanın nəzarətində olan (?) Zəngəzur dəhlizinin açılması Moskvaya Ermənistan, Azərbaycan və Türk Dövlətləri Birliyinə qarşı böyük təsir rıçaqı verir: ”Ukrayna cəbhəsində bütün Qərblə müharibə vəziyyətində olan Rusiya Cənubi Qafqazda imkanlarını çox məhdudlaşdırıb, ancaq Rusiya kimi böyük dövlət nə qədər zəif olsa da, Ermənistan kimi kiçik və gücsüz ölkəni həmişə cəzalandıra bilər. Ancaq proseslər çox sürətlə gedir və Zəngəzur dəhlizinin Rusiyanın nəzarətində olması məsələsi dalana dirənib”.

O da bildirilir ki, Rusiya tələsir, çünki ABŞ və Qərb ölkələri öz müdafiə sistemlərini tədricən Ermənistanda yerləşdirirlər. İddia olunub ki, Ermənistana ilk zərbə Zəngəzurdan dəyəcək. Zəngəzurda qarşıdurma alovlanarsa, bölgə Ermənistanın işğalından çıxaraq Azərbaycanın nəzarətinə keçəcək və Türkiyənin də Azərbaycanın yanında olacağı şübhəsizdir.

”Rusiya tərəfi bunu nəzərə alırmı, yoxsa Zəngəzurun Azərbaycanın nəzarətinə keçməsi Moskvanın marağındadır” sualına cavab olaraq qeyd olunub: ”İlk baxışdan bu, Rusiyanın əleyhinədir, ancaq yaxından nəzər saldıqda, məsələ başqa cür görünür. Əgər Ermənistan Qərbin və NATO-nun əlinə düşsə, bu, Rusiya ilə açıq düşmənçilik elanı olacaq. Rusiya da onu cəzalandıracaq, Zəngəzurun itirilməsi isə Yerevan üçün ağır cəza olacaq. Belə ki, Ermənistan İranla əlaqəsini əldən verəcək, nəhayət, NATO bazasına çevrilən Ermənistan hökumətinin ayaqda durmaq şansı qalmayacaq”. Sonda qeyd edilib ki, Bakı üçün cəlbedici imkanlar yaranır, digər tərəfdən Rusiyanın qəbul etdiyi siyasətdə Ermənistan uduzan tərəfdir.

*Afət Tahirqızı*

# Vəzifə, vəzifə, vəzifə...



FELYETON

Bir adamın neçə evi olmalıdır? Deyəcəksiniz ki, bir evi olsa, bəsdir də. Nə edəcək, adam bir evdə yaşayır da. Desək ki, iki evi olsun, onda da qayıdıb deyəcəksiniz ki, iki evi bir adam nə edir?

Yaxşı, bir adamın neçə maşını olmalıdır? Hamı bir ağızdan deyəcək ki, biri bəsdir də. İkincini kim sürəcək? Yaxşı, bununla da razıyıq. Amma gəlin bir görək, bunu deyən adam bir vəzifəyə gedəndən sonra da belə düşünəcəkmi?

***

Həsənqulu dünənədək sadə bir oğlan idı. Bir evi, bir maşını vardı. Başını salıb aşağı dolanırdı bir təhər. Bir gün Allahı gətirdi, getdi vəzifəyə. Vallah, özləri gizlədir, amma yerin də qulağı var, yerdən səs gəldi ki, bu adam durub-dayanmaq bilmir. Evdir, maşındır ki, alır, puldur ki, yığır.

Məmmədqulu da dünənədək bir evli, bir maşınlı oğlanlardan idi. Günlərin bir günü getdi vəzifəyə. Aradan bir il keçmədi, Məmmədqulunun yerişi də dəyişdi, əyni-başı da, maşını da. Evinin ətrafına bir hasar çəkdi ki, oradan ha boylan ki, görə biləsən ki, içəridə nə var. Ay gördün, ay.

Hüseynqulu lap dəyişdi ey. Vəzifə bu adamı elə elədi ki, ta qonşulara salamını da kəsdi. Vallah, yalan-doğru deyirlər, pul-pənəsini buralara etibar etmir, xarici banklarda saxlayır. Deyirlər, 10-dan çox evi var.

Nəcəfqulu arıq bir oğlan idi. Elə ki, vəzifəyə keçdi, vəzifə buna düşdü, həm də necə düşdü. Nəcəfqulu oldu 100-150 kiloqram, bəlkə də yanılıram, bundan da çox. Həm də deyirlər, adam yaman pul yığıb.

Hələ Rzaqulunu demirəm, bizim kimi sadə bir adamıydı da. İndi gəlin, baxın. Vəzifəyə getdi, həyatı dəyişdi. Evini deyək, maşınını deyək, dolanışığını deyək, hansını deyək? Pula da pul demir. Dünənədək arvad-uşağı Sədərək bazarından yığılmırdı, indi “Mall”ardan çıxmırlar.

Əşi, özləri bilər ey, yığsınlar, xərcləsinlər. Bal tutan barmaq yalayacaq da. Bunu atalar deyib, biz uşaq-muşaq deməmişik ki. Amma başqa məsələ maraqlıdır ey. Səhərdən bəri mətləbə gəlmək üçün yola çıxmışam. Şükür, deyəsən gələ bildim.

Mətləb budur ki, ay qardaş, sənə bu vəzifəni verməyiblər ey, talançılıqla məşğul olasan. Birinci ona görə veriblər ki, iş görəsən, bir işə, əmələ yarıyasan. İkinci, başqalarından fərqləndirildiyin üçün qanadların yanında dura, göylərə avaz eyləməyə.

Amma çox halda belə deyil axı. Elə ki, vəzifə başına keçildi, məqsəd dəyişir. Adam başlayır pul yığmağa. Yığır, yığır, yığır, deməli, bu pul ailəni aşır, övladı aşır, nəvələri aşır, nəticələri aşır, kötücələri aşır, yadıcaları ( yadlaşmaqda olan nəsil) da aşır, lakin adam durmur. Eşidirsən ki, milyonları mənimsəyib, lakin gözü hələ də doymayıb.

Deyirəm, haradan alım Molla Nəsrəddini, gələ bunlara bir az ağıl-huş verə. Deyə ki, ay yazıqlar, dayanın, özünüzü biabır etməyin. Gözünüz doysun, nə edirsiniz? Bu qədər yetər. Vallah, heç qədrinizi övladınız bilməyəcək. Pulunuzu elə sovuracaq göylərə ki, baxıb görəcəksiniz ki, oba köçüb, yurdu qalıb. Nəvələriniz xərcləyəcək, amma inanın, bicə dəfə sizə rəhmət oxumayacaqlar. Nəticələriniz üzünüzü görə, ya görməyə. Xərcləyib, heç sizi əsla anmayacaqlar. Qaldı kötücəyə, yadıcalara, vallah, onlardan yana bu qədər həyəcana, qorxuya dəyməz. Çünki bu pulun axır-uxuru onlara çatacaq, az olduğu üçün hələ bir kəllənizi də söyəcəklər.

*Mətanət Məmmədova*

# Beynəlxalq müşahidəçilər: “Mütəşəkkil, şəffaf, pozuntusuz seçkilər keçirildi”

***Azərbaycanda növbədənkənar parlament seçkiləri başa çatıb. Bu seçkilərdə müşahidəçi qismində iştirak edən Rusiya nümayəndə heyətinin nümayəndələri “Moskva-Baku” portalına Azərbaycandakı seçki prosesi ilə bağlı fikirlərini bildirib. Rəyləri oxucularımıza təqdim edirik.***



RƏYLƏR



**Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının müşahidə missiyasının rəhbəri Aleksandr Terentyev:**

- Azərbaycan öz xalqının mənafeyinə uyğun müstəqil, müstəqil siyasət aparır. Qeyd etmək istərdim ki, bir çox ölkələr seçki kampaniyası çərçivəsində bu prosesə kənardan təsir göstərmək cəhdləri ilə üzləşirlər. Biz bunu Rusiyada keçirilən son prezident seçkiləri zamanı hiss etdik, hələ seçkilər keçirilməzdən əvvəl guya qanun pozuntuları barədə nağıllar yayılırdı. Yeni qanunların qəbulu ilə bütün Qərb dünyasının bu respublikaya qarşı çevrildiyi Gürcüstanda vəziyyətin necə ağır olduğunu görürük.

Mən şadam ki, Azərbaycan belə uğurlu, güclü kampaniya həyata keçirdi və bu, əhalinin Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu kursu dəstəklədiyini bir daha vurğulayır.

MDB ölkələrinin nümayəndələrindən ibarət monitorinq qrupunun hesabatı bu gün mənim üçün vacib idi və bu baxımdan Azərbaycanda keçirilən parlament seçkiləri zamanı heç bir qanun pozuntusu görmədim. Monitorinq qrupu prokurorluqdan və Daxili İşlər Nazirliyindən məlumat tələb edib və ciddi qanun pozuntusu qeydə alınmayıb. Azərbaycan Mərkəzi Seçki Komissiyasının peşəkar fəaliyyətini qeyd etmək istərdim. Azərbaycan xalqını parlament seçkilərinin uğurla keçirilməsi münasibətilə təbrik edirəm.



**Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının senatoru İlyas Umaxanov:**

- Mən qonşu respublika olan Dağıstanı təmsil edirəm. Azərbaycan və Dağıstanı çoxillik ənənələr, mədəniyyət və tarix birləşdirir. Dünən Azərbaycan üçün mühüm siyasi hadisələrdən biri baş verdi. Nəinki respublikanın daxili vəziyyətinə təsir edən, həm də bizim, qonşu dövlətlər üçün çox önəmli olan hadisə. Axı hansı parlamentin seçiləcəyi həm də Azərbaycanın necə olacağını, ölkəni gələcəkdə hansı inkişaf vektorunun gözlədiyini müəyyənləşdirəcək.

Azərbaycan çiçəklənən, suveren və güclü dövlətdir. Bu yaxınlarda Rusiya Prezidenti Vladimir Putin Azərbaycana səfər etdi, danışıqlar aparıldı, nəinki iqtisadi əlaqələrin inkişafına təkan verəcək, həm də ölkələrimiz arasında humanitar və mədəni əlaqələrin möhkəmlənməsinə kömək edəcək mühüm sənədlər imzalandı. Biz isə parlamentarilər olaraq bu mühüm prosesə öz töhfəmizi verməliyik.

Mən bu seçki kampaniyasında iştirak etmiş bir çox deputatlığa namizədlərlə tanışam. Bunlar ictimai rəyin liderləri olan və müxtəlif partiyaları təmsil edən nüfuzlu insanlardır. Mən onların hamısına uğurlar, həmçinin bütün Azərbaycan xalqına firavanlıq arzulayıram.







**Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının senatoru Aleksandr Jukov:**

- Bakıda bir çox seçki məntəqələrində olduq- 20-yə yaxın. Azərbaycanda parlament seçkilərinin təşkili prosesi heç bir şikayətə səbəb olmadı; Komissiya sədrlərinin bacarıqlı işini qeyd etmək istərdim. Biz yerli müşahidəçilərlə də əlaqə saxladıq və onların gedən proseslə bağlı iradları olmadı. Hər şey mükəmməl təşkil olunmuşdu, seçki məntəqələri vaxtında açılmış, bütün seçki prosesi şəffaf olmuşdur. Azərbaycan Konstitusiyasına uyğun olaraq hər şeyə əməl olunub.

Mən birinci dəfə deyil ki, seçkiləri müşahidə edirəm, ona görə deyə bilərəm ki, Azərbaycanda nümunəvi seçkilər keçirilib. Bakıya ilk dəfə gəldim və şəhərdən çox təsirləndim. Belə gözəl şəhəri, qonaqpərvər insanları görmək çox xoşdur, burada olmaq çox xoşdur. Qeyd edim ki, mən Xakasiya Respublikasını təmsil edirəm və bizdə ən böyük Azərbaycan diasporu var.

Bu gün Azərbaycan ilə Rusiya arasında əlaqələr çox möhkəmdir, bunu liderlərimizin Bakıda keçirilən sonuncu görüşündən də görmək olar. Düşünürəm ki, əlaqələrimiz bundan sonra da uğurla inkişaf edəcək, onların böyük perspektivləri var.

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb.*

# Daha bir idmançımız paralimpiya çempionu olub




*Azərbaycanın daha bir təmsilçisi Səid Nəcəfzadə Paris-2024 Yay Paralimpiya Oyunlarında qızıl medal qazanıb. SİA-nın məlumatına görə, T12 kateqoriyasında yer alan paraatlet uzunluğa tullanma növündə çıxış edib. O, 7,27 metr nəticə ilə paralimpiya çempionu olub.*

Qeyd edək ki, daha əvvəl Azərbaycanın hesabında 1 qızıl, 1 gümüş və 1 bürünc medal olub. Raman Saley 100 metr məsafəyə arxasıüstə üzməkdə gümüş mükafat əldə edib. Daha əvvəl isə Azərbaycan parataekvondoçusu İmaməddin Xəlilov (70 kq) qızıl, Sabir Zeynalov (58 kq) bürünc medala sahib çıxıb.

# "WhatsApp"dan çoxdan gözlənilən YENİLİK




*"WhatsApp" istifadəçiləri PİN kodu təyin edərək yeni mesajlardan "qoruna" biləcəklər. Bu barədə "WABetaInfo" portalı məlumat yayıb. Bu funksiya iOS-da əlavələrin funksiyalarını yoxlamaq üçün istifadə edilən "TestFlight" proqramı vasitəsilə aşkar edilib. Portal müəlliflərinin sözlərinə görə, vatsapın gələcək versiyasında istifadəçi arzuolunmaz mesajlardan özünü qorumaq üçün PİN kodu əlavə edə biləcək.*

Bildirilir ki, yeni həmsöhbətlər ilk mesajı yazmaq üçün PİN kodu daxil etməli olacaqlar. Məhdudiyyət adları "əlaqə kitabı"nda olmayan istifadəçilərə şamil edilir. Yeni funksiyanın messencerin ictimai versiyasında nə vaxt istifadəyə veriləcəyi məlum deyil.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Bu ölkədə məktəblərdə telefonlar qadağan edildi!



Rusiyada məktəblilərin dərs zamanı mobil telefondan istifadə edə bilməyəcəyi qanun qüvvəyə minib. Yeni qanunu həm valideynlər, həm də müəllimlər dəstəkləyib. Valideynlərin 87%-ə yaxını, müəllimlərin 90%-i bunun tərəfdarıdır. Bunu "Superjob" iş axtarışı xidmətinin araşdırmasının nəticələri sübut edir. "Sorğu göstərdi ki, məktəblilərin valideynlərinin 87 faizi bu qərarın lehinədir. "Smartfon diqqəti yayındırır. Dərslərdə istifadə etməyə ehtiyac yoxdur". Respondentlərin yalnız 5%-i qadağanın əleyhinə olub.

Aydınlaşdırılır ki, hər 10 müəllimdən 9-u yeniliyi bəyənir. Müsahibə aparan müəllimlərin 6%-i dərs zamanı bəzən müasir texnologiyalardan istifadə etməyin lazım olduğu fikrini bildirərək cavab verməkdə çətinlik çəkib.//Publika.az

# Yasamalda qadın sürücü qəza törətdi: ölən var



***Bakıda avtomobil piyadanı vuraraq öldürüb. Hadisə paytaxtın Yasamal rayonunda qeydə alınıb.***

Almaz Əliyeva idarə etdiyi "Toyota RAV 4" markalı avtomobillə 1963-cü il təvəllüdlü Lazım Talıbovu vurub. Piyada aldığı xəsarətdən hadisə yerində ölüb. Faktla bağlı cinayət işi başlanılıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**